## Bayden Ukraynaya əlavə 800 milyon dollarlıq hərbi yardım ayırıb



**ABŞ Prezidenti Co Bayden Ukraynaya əlavə 800 milyon dollarlıq hərbi yardım ayırdığını açıqlayıb.**

APA xəbər verir ki, o, bu barədə mətbuat konfransında bildirib.

ABŞ lideri bununla bağlı qərarı təsdiqlədiyini bəyan edib.

Bayden hərbi yardım paketinə ağır artilleriya silahları, haupitsalar və taktiki dronların daxil olduğunu vurğulayıb.



## Şabranda 45 yaşlı qadın dəm qazından boğularaq ölüb

**Şabranda bədbəxt hadisə baş verib.**

APA-nın şimal bürosunun verdiyi məlumata görə, 45 yaşlı şəhər sakini Amiyeva Natalya Vladimir qızı hamamda dəm qazından boğularaq ölüb.

*Faktla bağlı araşdırmalar davam etdirilir.*

❐ № 70 (5592), 2022-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 22 aprel 2022-ci il (cümə)




# Gələn ay quru sərhədlər açıla bilər

May ayının 1-dən etibarən maska qadağasının ləğvi gözlənilir

**"Azərbaycanda maska qadağasının ləğvi gözlənilir".**

**Bunu TƏBİB-in sədri vəzifəsini icra edən Vüqar Qurbanov bildirib.**

Onun sözlərinə görə, ancaq bununla bağlı tarix dəqiq deyil:

"Bu qərarın may ayının birinə, yoxsa yarım saata olacağını isə dəqiq deyə bilmərik".

Millət vəkili Fazil Mustafa isə deyib ki, hökümət növbəti yumşaldılma qərarı üzərində işləyir. "May ayının 1-dən etibarən maska qadağası ləğv edilməli, quru sərhədlər isə açılmalıdır". Millət vəkili "Xəzər Xəbər"ə müsahibəsində bildirib ki, bu qadağaların ləğvi üçün zəmin yaranıb.

F.Mustafa onu da qeyd edib ki, bütün hallarda pandemiyaya nəzarət diqqətdə saxlanılmalıdır. Yoluxmanı artıracaq amillərin qarşısı anında alınmalıdır. O bildirib ki, hazırda hökümət növbəti yumşaldılma qərarı üzərində işləyir.

*Qeyd edək ki, Baş Nazirin qərarı ilə sonuncu dəfə xüsusi karantin rejmi may ayının 1-ə qədər uzadılıb. Bu müddətin növbəti dəfə uzadılıb-uzadılmamasına isə yaxın günlərdə aydınlıq gələcək.*




## Ukraynaya humanitar yardım göndərdik

Səfirlik Azərbaycana təşəkkür edib

**Ukraynanın Azərbaycandakı Səfirliyi növbəti humanitar yardım üçün Azərbaycana təşəkkür edib.**

Bu barədə Səfirliyin rəsmi "Twitter" hesabında paylaşım edilib.

"Azərbaycan Rusiyanın hücumundan sonra Ukraynaya 1000 tondan çox mühüm humanitar yardım çatdırıb! Təşəkkürlər, Dostlar!", - paylaşımda deyilir.

*Qeyd edək ki, dünən Azərbaycan dövləti tərəfindən Ukrayna xalqına humanitar yardım məqsədilə dərman vasitələri, tibbi sərfiyyat malları və ərzaq məhsullarından ibarət növbəti yardım yola salınıb.*

(səh.2)

## Şuşanın qonaqları gəldi

V Qurultayın böyük tarixi, siyasi və mənəvi əhəmiyyəti var



**Dünya Azərbaycanlılarının V Qurultayının iştirakçılarının ilk qrupu Şuşaya çatıb.**

Şuşada keçiriləcək Zəfər qurultayında 65 ölkədən 400 nəfərə yaxın diaspor nümayəndəsinin iştirakı gözlənilir. Dünya Azərbaycanlılarının V Qurultayı 22-23 aprel tarixlərində Şuşa şəhərində keçiriləcək.

(səh.2)

# Prezident Şuşada

Dövlət başçısı işğaldan azad olunmuş ərazilərdəki bərpa-quruculuq işlərinin gedişi ilə tanış olub



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 21-də Füzuli rayonunda Köndələnçay su anbarlarında aparılacaq təmir-bərpa işləri, Şuşa rayonunun Daşaltı kəndində Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun və bu yolun üzərindəki tunellərin inşası, Şuşa şəhərində inzibati binanın əsaslı təmiri və konfrans zalının tikintisi ilə tanış olub.**

İşğaldan azad olunmuş ərazilərin bərpasını öz maliyyə imkanları hesabına həyata keçirən Azərbaycan bu sahədə öz standartlarını yaradıb. Mina problemi, eyni zamanda, pandemiyanın yaratdığı çətinliklərə rəğmən, bərpa və yenidənqurma işləri bütün istiqamətlər üzrə sürətlə və planlı şəkildə aparılır. Su anbarlarının gələcək istismarı, hidroehtiyatların ölkənin su təsərrüfatı sisteminə inteqrasiyası da bərpa prosesinin və Böyük Qayıdışın tərkib hissəsidir.

(səh.2)

# Kimsəni dinləmir

Putin işğalı davam etdirəcək



**Yüksək vəzifəli Kreml rəsmiləri Ukraynaya müdaxiləni "fəlakətli" səhv hesab edirlər.** "Bloomberg"ə danışan Kreml rəsmiləri Putinin işi pərdə arxasında idarə etməyə başladığı üçün çox ciddi səhv hesablamaların edildiyini bildiriblər. Bildirilir ki, işğal nə qədər uzun davam etsə, Rusiya Prezidenti Vladimir Putin bir o qədər inadkar və qorxulu olacaq. Məlum olub ki, Federal Təhlükəsizlik Xidmətinin (FTX) xarici kəşfiyyat bölməsinin rəisi, general-polkovnik Sergey Beseda ev dustaqlığına buraxıldıqdan sonra Moskvanın yüksək rejimli Lefortovo həbsxanasına köçürülüb.

(səh.5)




## Xəstələr narazıdır

Daha bunun harası icbari tibbi sığorta oldu?

**Əhali icbari tibbi sığortadan niyə narazıdır? Həsrətlə yolunu gözlədiyimiz icbari tibbi sığortanın nəhayət bütün ölkə boyu tətbiqi elan edilsə də, gözləntilər hələ də özünü doğrultmur.**

Yerli poliklinikalarda heç kreatin analizi də aparılmır. Laboratoriya işçiləri fağır-fağır "bizdə bu müayinələr yoxdu", deyir, sonra da çəkinə-çəkinə "ödəniş edin, başqa yerə göndərək analizi, gəlib cavabını burdan alarsınız. Ödənişin miqdarını dəqiq bilmədiyimiz üçün yazmırıq. Payızda təxminən 12 manat idi. Yəqin qiyməti qalxıb.

(səh.6)

## Daha 33 nəfər koronavirusa yoluxub

1 nəfər vəfat edib, 19 nəfər müalicə olunaraq sağalıb




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 33 yeni yoluxma faktı qeydə alınıb, 19 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəxslərdən 1 nəfəri vəfat edib.

Azərbaycanda indiyədək ölkədə ümumilikdə 792 445 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 782 603 nəfər müalicə olunaraq sağalıb, 9707 nəfər vəfat edib, aktiv xəstə sayı 135 nəfərdir.

## Bakıda oğlan sevdiyi qıza görə intihar edib



**Bakıda intihar hadisəsi baş verib.**

"Kriminalqafqaz"ın məlumatına görə, 1998-ci il təvəllüdlü Araz Xəlilov aprelin 20-də özünü Binəqədi rayonu Biləcəri qəsəbəsində yerləşən "UTÇ" adlanan avtomobil parkının ərazisində asıb. Onun asılı vəziyyətdə qalmış meyiti istehsalat bazasındakı təmir emalatxanasında aşkarlanıb.

İlkin araşdırmalar zamanı Ucar rayon sakini olan 24 yaşlı şəxsin sevdiyi qızın onunla evlənmək istəməməsi səbəbindən intihar etməsi üzə çıxıb.

## Ukrayna danışıqlar masasında "əli boş" oturacaq

Fuad Abbasov: "Putin müharibəyə Zelenski ilə razılığa gəlmək üçün başlamayıb"



(səh.4)

## Fransada "erməni ideologiyası" məğlub olub

Asim Mollazadə: "Bu ideyaların nəticəsində erməni xalqını qurbana çeviriblər"



(səh.3)



# Prezident Şuşada

## Dövlət başçısı işğaldan azad olunmuş ərazilərdəki bərpa-quruculuq işlərinin gedişi ilə tanış olub



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 21-də Füzuli rayonunda Köndələnçay su anbarlarında aparılacaq təmir-bərpa işləri, Şuşa rayonunun Daşaltı kəndində Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun və bu yolun üzərindəki tunellərin inşası, Şuşa şəhərində inzibati binanın əsaslı təmiri və konfrans zalının tikintisi ilə tanış olub.**

İşğaldan azad olunmuş ərazilərin bərpasını öz maliyyə imkanları hesabına həyata keçirən Azərbaycan bu sahədə də öz standartlarını yaradıb. Mina problemi, eyni zamanda, pandemiyanın yaratdığı çətinliklərə rəğmən, bərpa və yenidənqurma işləri bütün istiqamətlər üzrə sürətlə və planlı şəkildə aparılır. Su anbarlarının gələcək istismarı, hidroehtiyatların ölkənin su təsərrüfatı sisteminə inteqrasiyası da bərpa prosesinin və Böyük Qayıdışın tərkib hissəsidir.

Prezident İlham Əliyev Köndələnçay su anbarlarında aparılacaq təmir-bərpa işləri ilə tanış olub.

Bildirilib ki, işğal dövründə on minlərlə hektar əkinəyararlı torpaq sahələrinin suvarılmaması faktiki olaraq bu sahələrin təsərrüfat dövriyyəsindən çıxarılmasına səbəb olub. Mövcud su anbarlarının qəsdən məhv edilməsi isə Ermənistanın Qarabağda aqrar sahədə dağıdıcı fəaliyyətinin nəticəsidir. Köndələnçay su anbarı buna bariz misaldır. Ümumi sistemə daxil olan "Köndələnçay-1", "Köndələnçay-2" və "Aşağı Köndələnçay" su anbarlarının bərpası ilə Füzuli rayonu ərazisində 6200 hektar əkin sahəsinin suvarılması mümkün olacaq.

Qeyd edək ki, işğaldan azad olunmuş ərazilərdə ümumilikdə 9 su anbarı tikilir və ya təmir olunur. Qarabağın zəngin su ehtiyatlarının düzgün və səmərəli idarə olunması bütövlükdə regionun iqtisadi inkişafını sürətləndirəcək.

İşğaldan azad olunan ərazilərin kənd təsərrüfatı sahəsində potensialı ölkə iqtisadiyyatı üçün mühüm drayverlərdən birinə çevriləcək. Su ehtiyatlarının düzgün idarə edilməsi və səmərəli istifadəsi isə Qarabağda aqrar sahənin inkişafına töhfə verəcək. Hazırda bərpası nəzərdə tutulan su anbarlarının istifadəyə verilməsi ilə bu məsələ həllini tapacaq.

İşğal dövründə Ermənistan məqsədli şəkildə su ehtiyatlarından təzyiq vasitəsi kimi istifadə edirdi. Bu gün Azərbaycan Prezidenti İlham Əliyevin strateji kursuna əsasən, bərpa prosesi zamanı sudan məqsədyönlü istifadə üçün infrastruktur imkanlarını təkmilləşdirilir. Bu, eyni zamanda, keçmiş məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması, məşğulluğun artırılması, ölkədə ərzaq təhlükəsizliyinin təmin olunmasına hesablanıb.

Sonra dövlətimizin başçısı Şuşa rayonunun Daşaltı kəndində Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun və bu yolun üzərindəki tunellərin inşası ilə tanış olub.

Qeyd edək ki, Qarabağın dirçəlişinə aparan Böyük Qayıdış proqramının əsas tərkib hissələrindən biri yol infrastrukturunun qurulmasıdır. Şuşaya çəkilən Zəfər yolunun cığırı qəhrəman əsgər və zabitlər tərəfindən açılıb. Hazırda bu yolda işlər davam etdirilir - məqsəd Şuşaya avtomobillə daha tez və rahat çatmaqdır. Cəmi 10 ay əvvəlki vəziyyətlə hazırkı mərhələni müqayisə etdikdə mübaliğəsiz demək olar ki, dünyada bu sürət və keyfiyyətdə görülən işlərə rast gəlmək mümkün deyil.

Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun digər önəmi onun Zəngəzur dəhlizinin magistralı ilə birləşməsindədir.

Məlumat verilib ki, yolun uzunluğu 81,6 kilometr, hərəkət zolaqlarının sayı 4-6, hərəkət zolağının eni isə 3,5 metrdir. Yol boyu 7 tunelin tikintisi aparılır. Bir neçə tuneldə qazma işləri artıq tamamlanıb, digərlərində isə qazma, partlatma və qırma üsulları ilə qaya qruntlardan ibarət hissələrin kənarlaşdırılması işləri davam edir. Bundan başqa, tunellərdə havalandırma və izolyasiya sistemləri də quraşdırılır.

Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunda tunellərin inşası ilə yanaşı, yol boyu müxtəlif hissələrdə torpaq yatağının, körpülərin, yeraltı keçid və suötürücü boruların tikintisi də layihəyə uyğun şəkildə icra olunur.

Prezident İlham Əliyev avtomobili tuneldə idarə edib.

Qeyd edək ki, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində icra olunan yol-nəqliyyat infrastrukturu işğaldan azad edilən rayon və kəndlərin sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq. Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun tikintisinin 2024-cü ildə başa çatdırılması planlaşdırılır.

Daha sonra Prezident İlham Əliyev Şuşa şəhərinə gəlib.

Məlum olduğu kimi, aparılan kompleks işlər çərçivəsində Şuşa şəhərinin tarixi görkəminin bərpası, əvvəlki şöhrətinin özünə qaytarılması və ənənəvi dolğun mədəni həyatına qovuşması üçün bərpa-quruculuq işləri sürətlə davam etdirilir.

Dövlətimizin başçısı əvvəlcə Şuşa şəhərində tullantıların idarə olunması poliqonunda gedən işlərlə tanış olub.

Bildirildi ki, burada məişət tullantıları Avropa standartlarına uyğun xüsusi yeraltı konteynerlərdə yerləşdiriləcək. Poliqonda 4 çeşid üzrə 600 ədəd SMART yeraltı konteyner və 11 ədəd xüsusi texnika nəzərdə tutulub. Ərazidə sökündü materiallarının çeşidlənməsi də aparılacaq. Şəhərin su təchizatı sisteminin dayanıqlığının təmini də iki mərhələdə paralel layihələrlə həyata keçiriləcək.

Sonra Prezident İlham Əliyev Şuşa şəhər inzibati binanın əsaslı təmiri və konfrans zalının tikintisi ilə tanış olub.

Məlumat verilib ki, hazırda binada işlər tamamlanmaq üzrədir. Şəhərin arxitekturasına uyğun tikilən binada hər cür şərait yaradılacaq.

# Ukraynaya humanitar yardım göndərdik

## Səfirlik Azərbaycana təşəkkür edib



**Ukraynanın Azərbaycandakı Səfirliyi növbəti humanitar yardım üçün Azərbaycana təşəkkür edib.**

**Bu barədə Səfirliyin rəsmi "Twitter" hesabında paylaşım edilib.**

"Azərbaycan Rusiyanın hücumundan sonra Ukraynaya 1000 tondan çox mühüm humanitar yardım çatdırıb! Təşəkkürlər, Dostlar!", - paylaşımda deyilir.

Qeyd edək ki, dünən Azərbaycan dövləti tərəfindən Ukrayna xalqına humanitar yardım məqsədilə dərman vasitələri, tibbi sərfiyyat malları və ərzaq məhsullarından ibarət növbəti yardım yola salınıb.

Ümumi çəkisi 170 tondan artıq olan humanitar yardıma 3.37 milyon manat məbləğində dərman vasitələri və tibbi sərfiyyat malları, eləcə də 1 milyon manat məbləğində ərzaq məhsulları daxildir.

Ukraynadakı vəziyyətlə əlaqədar ölkə rəhbərliyinin tapşırığı ilə Azərbaycan tərəfindən cari ilin 27 fevral və 12 mart tarixlərində Ukraynaya, eləcə də 15 aprel tarixində ukraynalı qaçqınlar üçün Moldovaya ümumi məbləği 23.2 milyon manatdan artıq olan 550 tona yaxın humanitar yardım göndərilib.

*Beləliklə, Azərbaycan Respublikasının Ukraynadakı böhranla bağlı göstərdiyi humanitar yardımın ümumi məbləği 27.6 milyon manat (təxminən 15 milyon avro), çəkisi isə 720 ton təşkil edir.*

# "Biz onları gözləmirik"

## Zaxarova: "ABŞ və Fransa Rusiyaya ATƏT-in Minsk qrupunun bərpası ilə bağlı bəyanat verməyiblər"



**ATƏT-in Minsk Qrupunun ABŞ və Fransadan olan həmsədrləri Bakı ilə İrəvan arasında hərtərəfli sülhə nail olmaq üçün Rusiya tərəfinə bu mexanizmin işini bərpa etməyə hazır olduqları barədə siqnallar göndərməyiblər.**

APA TASS agentliyinə istinadən xəbər verir ki, bu barədə Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarovanın şərhində deyilir.

"Bizə belə siqnallar daxil olmayıb. Biz onları gözləmirik",-deyə Zaxarova bildirib.

Zaxarova bildirib ki, Vaşinqton və Paris Rusiyanın iştirakı ilə əməkdaşlıqdan imtina etməklə faktiki olaraq "ATƏT-in Minsk Qrupunun üç həmsədrinin vaxtilə yaxşı əlaqələndirilmiş işini" iflic ediblər.

# Sülhün başqa alternativi yoxdur

## Rusiya normallaşma prosesinin qarşısını ala bilməyəcək



**"Rusiya Prezidenti Vladimir Putin Ermənistan və Azərbaycan arasında normallaşma prosesinə mane ola bilər, amma qarşısını ala bilməz".**

Bunu "Şərq"ə açıqlamasında politoloq Məhəmməd Əsədullazadə deyib. Analitik bildirib ki, Qərblə Rusiya arasında siyasi konfontrasiya fonunda Brüssel iki ölkə arasında vasitəçilik missiyasını məhz Cənubi Qafqazda Rusiyanın çıxarılması kimi görür: "Nikol Paşınyanın Moskvaya səfərində V.Putinin Qarabağ məsələsini qabartması göstərir ki, Kreml iki ölkə arasında sülhün əldə olunmasına qarşıdır. Məhz Putinin "Qarabağda problemlər var" deməsi buna əsaslanır. Rusiya 30 il ərzində işğalın davam etməsinə dəstək verib. Geopolitik düzənin dəyişməsi Azərbaycana imkan verdi ki, öz ərazilərini işğaldan azad etsin. Xüsusilə Rusiyanın ən güclü olan vaxtında Azərbaycan bunu etdi. Hazırda Avropa İttifaqı və ABŞ Minsk qrupunun fiaskosunu qəbul edib. Ermənistan rəhbərliyi də Azərbaycanın 5 bəndlik təkliflərini məqbul sayıb. Ona görə də Rusiya iki ölkə arasında başlayan normallaşma prosesinin qarşısını ala bilməyəcək. Rusiya rəhbərliyi "sülhməramlı" qüvvələrini Qarabağdan çıxarmağı düşünməlidir, nəinki problemləri "həll etməyi". Yaxşı olardı ki, Putin Ukraynada düşdüyü problemdən çıxmaq yollarını tapsın.

Azərbaycan uzaq olmayan perspektivdə Ermənistanı sülhə məcbur edəcək. Qərb də bunun alternativinin olmadığının fərqindədir".

**İsmayıl**



# 130 illik yubileylə bağlı mühüm işlər görülməlidir

## Əhməd Cavadın abidəsi ucaldılmalıdır, doğulduğu Şəmkirdə ev muzeyi yaradılmalıdır

**Azərbaycan xalqının istiqlal mübarizəsinə layiqli töhfələr vermiş vətənpərvər şair Əhməd Cavadın anadan olmasının 130-cu ildönümü qeyd ediləcək. Bununla bağlı Prezident İlham Əliyev sərəncam imzalayıb. Sərəncama əsasən, Mədəniyyət Nazirliyinə Azərbaycan Yazıçılar Birliyinin təkliflərini nəzərə almaqla görkəmli şair Əhməd Cavadın 130 illiyinə dair tədbirlər planı hazırlayıb həyata keçirmək tapşırılıb.**

Əhməd Cavad Azərbaycan ədəbi-bədii fikri tarixində istiqlal şairi kimi özünəməxsus dəst-xətti ilə seçilən, müstəsna mövqeyə malik söz ustalarındandır. Bütün qəlbi ilə bağlı olduğu doğma xalqının müstəqillik ideallarına həyatı boyu sadiq qalmış sənətkarın azadlıq motivləri ilə zəngin yaradıcılığı milli məfkurədən yoğrulub. Azərbaycanın dövlət rəmzlərini yüksək şeiriyyətlə alovlu tərənnüm edən şairin müstəqil dövlətçiliyə sevgi aşılayan əsərləri dərin vətənpərvərlik duyğularının heyrətamiz poetik ifadəsidir. Əhməd Cavad şeir-sənət aləminə qatıldığı ilk günlərdən Azərbaycan türklərinin və türk dünyasının milli şairi kimi sevilib. Şair daim ictimai-siyasi hadisələrin qaynar nöqtələrində olub. Dövrün parlaq şəxsiyyətləri sırasında 1930-cu illərin ağır repressiyalarına məruz qalaraq, sovet totalitarizminin qurbanına çevrilib. Xalqımızın milli iradəsi və azadlıq, istiqlaliyyət əzmini göstərmək baxımından da Azərbaycan Xalq Cümhuriyyəti xüsusi əhəmiyyətə malikdir. Təsadüfi deyil ki, bu gün olduğu kimi o zamanlar da şair və ədiblərimiz bu müstəqilliyin sevinci ilə yaşayıb, onu əsərlərinin ana mövzusuna çeviriblər. O zaman yaranan ədəbi əsərlərdə aparıcı mövzu xalqımızın istiqlaliyyət rəmzi olan Azərbaycan Xalq Cümhuriyyəti və onun dövlətçilik atributları, xalqın mücadilə əzmi olub. Azərbaycan ədəbiyyatının görkəmli simalarından olan Əhməd Cavadın (1891-1937) yaradıcılığı da Azərbaycan dövlətçiliyi və dövlət atributlarının tərənnümü baxımından xüsusilə diqqət cəlb edir. Onun haqqında bəhs edənlər onu daha çox "milli istiqlalımızın tərənnümçüsü" adlandırırlar. Vətənə dərin məhəbbət bəsləyən, onun müstəqilliyi və dövlətçiliyini qürurla qarşılayan şair Əhməd Cavad Azərbaycan Xalq Cümhuriyyəti yadelli düşmənlər tərəfindən devrildikdən sonra onun həsrətini daim əsərlərində ifadə etdirib.

**Əhməd Cavadın anadan olmasının 130 illiyi ilə bağlı "Şərq"ə danışan tarixçi-alim, professor Nəsiman Yaqublu deyib ki, Prezidentin sərəncamını yüksək qiymətləndirib. Alim bildirib ki, Əhməd Cavad Azərbaycanda ictimai-siyasi şüurun formalaşmasında, dövlətçilik tarixində çox mühüm rol oynamış bir şəxsiyyətdir:**

"Əhməd Cavadın yaradıcılığının əsas hissəsi Azərbaycan dövlətinin, dövlətçiliyin təbliğatına, tərənnümünə həsr olunub. Şair bu məfhumlara sevgi, bağlılıq aşılayıb. Azərbaycan dövlətinin rəmzləri, bayraq haqqında ən gözəl və ilk şeiri Əhməd Cavad yazıb. O, sadəcə şair deyil, həm də bizim istiqlal məfkurəmizin daşıyıcısı və təbliğatçısıdır. Üçrəngli bayrağımızın tərənnümçüsüdür. Əhməd Cavaddan sonra bugünədək o səviyyədə bayrağa sevgi ruhunda şeir yazan ikinci şairimiz olmayıb. 1937-38-ci illərdə Ə.Cavad ona görə həbs olundu və güllələndi ki, o, Azərbaycan Cümhuriyyətini, bayrağımızı təbliğ edirdi. O səbəbdən düşünürəm ki, Əhməd Cavadın anadan olmasının ildönümünü sadəcə yubiley xətrinə keçirməli deyilik. Əhməd Cavad haqqında hələ sovet dönəmində ilk kitabı yazmaq, çap etdirmək mənə qismət olub. Sovet vaxtı Əhməd Cavad və ya başqaları haqda yazmaq o qədər də asan deyildi. Düşünürəm ki, 130 illikdə həmin əsəri yenidən çap etdirim. Orada çox əhəmiyyətli məqamlar var".

**Nəsiman Yaqublu:** "Onun Türkiyə ilə bağlılığı çox sıx olub. Türkiyədəki bütün irsi toplanmalı və çap edilməlidir. Əhməd Cavadın adı əbədi yaşadılmalıdır, haqqında televiziya verilişləri hazırlanmalıdır"



*N.Yaqublu vurğulayıb ki, 130 illik yubileylə bağlı mühüm işlər görülməlidir:*

"Əhməd Cavadın abidəsi ucaldılmalı, doğulduğu Şəmkir rayonunda ev muzeyi yaradılmalıdır. Ə.Cavadın Azərbaycan mətbuatında dərc olunmuş xeyli yazısı hələ də çap olunmayıb. O yazıları toplayıb, kitab halında nəşr etməliyik. Şairlə bağlı Türkiyədə yeni arxiv sənədlərini axtarıb-tapmaq lazımdır. Onun Türkiyə ilə bağlılığı çox sıx olub. Türkiyədəki bütün irsi toplanmalı və çap edilməlidir. Əhməd Cavadın adı əbədi yaşadılmalıdır, haqqında televiziya verilişləri hazırlanmalıdır. Ailə üzvləri ilə bağlı maraqlı proqramlar hazırlamaq mümkündür. Həyat yoldaşı Şükriyyə xanım 10 ilə yaxın həbsxanada qalıb. "Günahı" Əhməd Cavadın həyat yoldaşı olmaq idi. Məncə, Şükriyyə xanımla bağlı da gözəl veriliş ərsəyə gətirmək olar. O, məşhur bəy nəslindən olub, Acarıstanda çoxlu qohumları var. Evləri də durur, onları tapıb çəkmək olar. Görüləsi işlər çoxdur. Mən Əhməd Cavad haqqında öz yazılarımla mətbuatda çıxış edəcəm".

**İsmayıl Qocayev**

# 106 ildir türk düşmənləri yalan təbliğat aparırlar

## Qafar Çaxmaqlı: "1915-ci il olaylarına görə heç kəs Türkiyəni mühakimə edə bilməz"



**106 ildir erməni ideoloqları öz iyrənc yalanlarını təbliğ etməklə, dünyanı türk toplumuna qarşı doldurmağa çalışırlar. Türklər tərəfindən "soyqırım"a məruz qaldıqları iddiası ilə hər il "24 apreli matəm günü" kimi qeyd edirlər. Əslində, aprelin 24-də Osmanlı dövləti ərazisində heç bir erməni qətlə yetirilməyib.**

Osmanlı İmperiyasını parçalamaq istəyən dövlətlər XIX əsrin əvvəllərindən etibarən ona qarşı müxtəlif planlar cızmağa başlayıblar. "Şərq məsələsi" adlanan ideya da məhz həmin planların reallaşdırılması məqsədilə ortaya atılıb. Osmanlı dövlətinin daxili işlərinə müdaxilə etmək üçün Türkiyədə yaşayan xristian azlıqların mənafeyinin "qorunmaması" məsələsi buna ən gözəl bəhanə ola bilərdi. Osmanlı imperiyası ərazisində aysorlar, yunanlar, xristian ərəblər yaşasalar da, erməni azlığı daha çox diqqəti çəkirdi. Bu, onların xarakterindən, xəyanətkar olmalarından, satqın xislətindən irəli gəlirdi. Osmanlı dövləti cinayətkar fəaliyyətinə görə "Daşnak" və "Hnçak" partiyalarının rəhbərlərini həbs edib. Tarixi faktlar, arxiv materialları bunu isbatlayır. 1890-cı ildən etibarən başlayan üsyanlar 1915-ci ildə Osmanlı hakimiyyətini radikal qərarlar almağa məcbur buraxdı. "Soyqırımı" iddiası da bu dövrdən etibarən ortaya çıxdı. Bölgədə təşkilatlanan erməni komitələri mülki şəxslərə qarşı xüsusi amansızlıq nümayiş etdirdilər. Gerçəkləşdirilən üsyanlar və Birinci Dünya müharibəsi ərəfəsində ruslara qoşulan ermənilərin türklərə qarşı savaşması nəticəsində Osmanlı dövləti 27 may 1915-ci ildə köç qərarı çıxartdı. Kəndlərə hücum edərək silahsız əhalini qıran cinayətkar erməni dəstəsinin üzvləri həbs olundu. Köç karvanlarında yollarda aclıqdan və xəstəlikdən ölən ermənilər oldu. Yəni heç bir qətliam və yaxud "soyqırımı"ndan söhbət gedə bilməz. Ermənilər aprelin 24-nü ona görə "soyqırımı günü" kimi qeyd edirlər ki, köç haqqında qərardan sonra Türkiyənin 6 vilayətində dövlət yaratmaq xülyaları boşa çıxdı. Uzun illərdir ki, ermənilər tarixdə heç zaman olmayan uydurma "soyqırımı" dünyanın gündəliyinə gətirməklə, bu gün ondan siyasi məqsədlər üçün istifadə edirlər. Bədxahlar usanmadan dünya ölkələrinin parlamentlərində saxta "soyqırım" mövzusunu gündəmə gətirməyə çalışırlar. Halbuki, tarixi sənədlər təsdiq edir ki, 1915-ci ildə Türkiyə ərazisində ermənilərə qarşı heç bir soyqırımı olmayıb. Erməni "tarixçi"lərin 1915-ci ilin aprel-may aylarında Şərqi Anadoluda 1 milyon 500 min ermənininin guya "türklər tərəfindən qətlə yetirildiyini" iddia etməsi cəfəngiyyatdır. Çünki Osmanlı imperiyası dövründə əhalinin siyahıyaalınması zamanı orada cəmi 1 milyon 200 min ermənininin yaşadığı qeyd edilib. Bu sənədin özü də qondarma "erməni soyqırımı"nın gerçəklikdən uzaq, habelə böhtan olduğunu bir daha təsdiqləyir. Tarix boyu türklərə qarşı bir neçə soyqırım həyata keçirmiş, xalqımıza Xocalı faciəsini yaşatmış quldur erməni daşnakları qəhrəman türk xalqını saxta "soyqırım" törətməkdə ittiham edir. Acınacaqlı məqam odur ki, ermənilər özlərinə "demokratik" Qərb ölkələri arasında dəstəkçi də tapırlar. Fransa Prezidenti Makron Ukraynanın Buça şəhərində baş vermiş faciəni "soyqırım" adlandırmaqdan imtina etdi. Bildirdi ki, soyqırım faktına siyasətçilər yox, tarixçilər, hüquqşünaslar qiymət verməlidirlər. Bu açıqlamanın özü göstərir ki, ABŞ və Avropa ölkələri "erməni soyqırımı"na yanaşmada ikili standart sərgiləyirlər. Əks halda yüz il əvvəl Osmanlı Türkiyəsində baş vermiş hadisələrə də yalnız tarixçilər qiymət verməli, məsələ siyasi təzyiq vasitəsinə çevrilməməliydi.

**Türkiyənin Ərciyəs Universitetinin professoru, ermənişünas-alim Qafar Çaxmaqlı "Şərq"ə açıqlamasında bildirib ki, 1948-ci ildə qəbul olunmuş Ümumdünya İnsan Hüquqları Bəyannaməsinə görə, soyqırım məfhumu hüquqi termindir. Professorun sözlərinə görə, soyqırım məsələlərinə beynəlxalq hüquqi perspektivdən baxılır:** "1915-ci ildə yaşanmış hadisələr "soyqırım" kimi qəbul edilə bilməz. Çünki bunun üçün beynəlxalq məhkəmənin qərarı olmalıdır. Həmin dövrdə Türkiyədə baş vermiş hadisələrin "soyqırım" olmadığı ondan görünür ki, ermənilərin baş vurduqları heç bir beynəlxalq məhkəmə bu iddiaları yaxın buraxmayıb. Ayrı-ayrı ölkələrin parlamentlərində qəbul olunanlar isə siyasi qərarlardır və heç bir hüquqi əsası yoxdur. 1915-ci il olaylarına görə heç kəs Türkiyəni mühakimə edə bilməz. Xatırladım ki, elə bu mövzuda ötən gün Türkiyə Cümhuriyyəti Rabitə Nazirliyi tərəfindən "Tarix və hüquqi perspektivdən 1915-ci il olayları" adlı simpozium təşkil olunmuşdu. Dünyanın ən məşhur ermənişünaslarının iştirak etdiyi tədbirdə qondarma "soyqırımdan" ətraflı danışıldı. Tədbirə mən də qatıldım və "1915-ci il 27 may erməni köçündən öncə və sonra erməni qaynaqlarında olan yazıların incələnməsi" mövzusunda məruzə etdim".

**Q.Çaxmaqlının fikrincə, Ermənistan Türkiyə və Azərbaycanla sülh bağlasa belə ermənilər yenə də qondarma "soyqırımı"ndan, bu saxta ideologiyadan vaz keçməyəcəklər:** "Çünki bu, erməni millətinin özünü dünyaya tanıtma ideologiyasına çevirib. Düşünürlər ki, əgər bu məsələ yoxdursa, deməli, erməni millətinin var oluşundan danışmaq çətin olacaq. Təbliğatı nəyin üstündə quracaqları bəlli olmayacaq. Ona görə bu saxta iddiaları gündəmdə tuturlar".

**İsmayıl Qocayev**

# Fransada "erməni ideologiyası" məğlub olub

## Asim Mollazadə: "Bu ideyaların nəticəsində erməni xalqını qurbana çeviriblər"





**Aprelin 10-da Fransada baş tutan prezident seçkilərindən sonra Fransa daxilindəki bir sıra ciddi sosial və daxili problemlər gün üzünə çıxıb. Seçki sonrası aydın görünən digər məsələ isə erməni lobbisinin nüfuzunun azalmasıdır. Bunu Ermənistanın dəstəklədiyi, hətta, İrəvan və Xankəndiyə dəvət etdiyi namizədlər olan Valeri Pekress və İdalqonun cüzi səs toplamasında gördük.**

Bununla da ermənin lobbisinin illərdir, özü haqqında yaydığı miflər darmadağın oldu və şişirtmə məlumatlar olduğu bilindi. Görünür, erməni lobbisi yalnız bələdiyyə səviyyəsində təsirə malikdir, ümummilli səviyyədə isə onun nüfuzu çox aşağıdır.

Bunlarla yanaşı, erməni lobbisi həmişəki kimi prinsipsizlik və siyasi "flügerlik" nümayiş etdirir. İkinci turda Rusiyaya yaxın Le Penin seçkilərdə qalib gəlmək şansının az olduğunu anlayan erməni lobbisi Makrona dəstək olacağını bəyan edib. Bu etirafla da onlar bir daha öz daxili dünyalarını göstərmiş oldular.

**Erməni lobbisinin Fransadakı mövqeyini "Şərq"ə şərh edən Azərbaycan Demokratik İslahatlar Partiyasının sədri, millət vəkili Asim Mollazadə bildirib ki, erməni lobbisi siyasi korrupsiyaların təzahürüdür:**

"Düşünürəm ki, seçkilərdəki uğursuzluqlarına baxmayaraq, həm Fransa parlamenti və mediasında, həm də bir sıra qeyri-hökumət təşkilatlarında erməni diasporunda işləyib, lobbiçilik edən şəxslər çoxdur. Ona görə də Azərbaycana qarşı Fransa parlamentində onlar bir sıra sənədləri keçirdə biliblər. Çünki bu bir növ siyasi korrupsiyanın təzahürüdür. Bu zəngin diaspor siyasətçilər üçün maliyyə vəsaitləri ayrılır, onların bir sıra lobbiçiliklə məşğul olan jurnalist və hüquqşünasları var. Ona görə də biz düşünməməliyik ki, Fransa və Avropada erməni lobbiçiliyi dayandırılıb. Əksinə, onlar öz işlərini davam etdirirlər. Çünki anlayırlar ki, Fransada "erməni ideologiyası" məğlub olub. Çünki bu gün onların özlərinin ideyalarının arxasında əsas faşist ideyalar dayanır. Bu gün dünyada faşizmlə mübarizə artır. Ona görə onların faşist dəyərlərinə yer yoxdur. Onlar korrupsiyaya uğramış siyasətçilərdən istiafədə edərək bəyanatlar yayırlar, mətbuata təzyiq göstərirlər, qeyri-hökumət təşkilatlarını Azərbaycana qarşı istifadə edirlər. Amma real vəziyyət ondan ibarətdir ki, Ermənistanda yaşayan ermənilər o diasporun siyasətindən imtina edir. Hərbi cinayətkarlar olan müxalifətdəki siyasətçiləri erməni xalqı qəbul etmir. Müharibə məğlubiyyətindən sonra seçki keçirilib, yenə də onlar müharibəyə "yox" deyirlər. Çünki onlar bu qırğını yaşayıblar, amma Fransada, Avropanın digər ölkələrində yaşayan bu diaspor öz lobbiçilik fəaliyyəti ilə öz mövcudluğunu, öz ideyalarını yaşadırlar. Bu ideyaların nəticəsində erməni xalqını qurbana çeviriblər".

**A.Mollazadə qeyd edib ki, bu təşkilatlar yenə də öz oyunlarını oynamağa davam edəcəklər:**

"Amma Azərbaycan xalqı, onun müzəffər ordusu və Ali Baş Komandanı bütün beynəlxalq hüquq normaları çərçivəsində problemlərin həllinə nail oldu. Münaqişə bitib. Bu reallıq artıq bütün beynəlxalq təşkilatlar tərəfindən qəbul edilir. Məsələn, Amerika Birləşmiş Ştatları və Rusiya artıq Minsk qrupundan nümayəndə yox, Cənubi Qafqazda sülh yaratmaq üzrə xüsusi təmsilçiləri təyin edib. Bu onu göstərir ki, münaqişə yoxdur və onların faşist ideyaları məğlub olub. Bu gün Ermənistan bir dövlət kimi mövcud olmağı üçün Azərbaycanla sülh sazişi imzalamalıdır, sərhədləri müəyyənləşməlidir, bölgədə həyata keçirilən layihələrdə iştiraka nail olmalıdır, kommunikasiyalar açılmalıdır. Ermənistan üçün bundan başqa xilas yolu yoxdur".

İkinci turda Rusiyaya yaxın Le Penin seçkilərdə qalib gəlmək şansının az olduğunu anlayan erməni lobbisinin Makrona dəstək olacağını bəyan etməsinə gəlincə, parlamentari qeyd edib ki, bu, Fransadakı prezident seçkilərində hansısa ermənininin yaşadığı bölgə yox, bütün fransız xalqının iştirak etməsi ilə bağlıdır:

"Ona görə diasporun bu proseslərə ciddi təsir etmə imkanı yoxdur. Sadəcə olaraq, parlament seçkilərində, bölgələrdə erməni lobbisi və diasporu öz təsirini göstərə bilir. Məsələn, Marsel şəhərinin meri ermənidir, Paris şəhərinin mer müavini ermənidir. Çünki bunların sayı çoxdur və zəngindirlər. Bu səbəbdən də təşkilatlana biliblər və türk nifrəti ilə yaşayıblar. Lakin Fransa dövlətinə təsir göstərmək imkanlarına malik deyillər".

**Çimnaz**

**İsmayıl Qocayev**



# Şuşanın qonaqları gəldi

## V Qurultayın böyük tarixi, siyasi və mənəvi əhəmiyyəti var

**Dünya Azərbaycanlılarının V Qurultayının iştirakçılarının ilk qrupu Şuşaya çatıb.**

Şuşada keçiriləcək Zəfər qurultayında 65 ölkədən 400 nəfərə yaxın diaspor nümayəndəsinin iştirakı gözlənilir. Dünya Azərbaycanlılarının V Qurultayı 22-23 aprel tarixlərində Şuşa şəhərində keçiriləcək. Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov bildirib ki, Qurultayın rəsmi açılış mərasimindən sonra Diasporla İş üzrə Dövlət Komitəsinin fəaliyyətinə dair hesabat verilməsi, "Postmüharibə dövründə Azərbaycan diasporunun qarşısında duran vəzifələr", "Qarabağın bərpası və yenidən qurulmasına Azərbaycan diasporunun töhfələri" mövzularında müzakirələrin təşkili planlaşdırılır. Dünya Azərbaycanlılarının V Qurultayı son illər yüksək təşkilatlanma və birlik nümayiş etdirən, beynəlxalq ictimaiyyətin Azərbaycan həqiqətləri ilə bağlı məlumatlandırılmasında xüsusi rol oynayan diasporumuzun Qarabağın azad olunmasından sonra ilk böyük görüşü olacaq. Dünya azərbaycanlılarının mötəbər tədbirinin tarixi zəfərimizin rəmzi olan Şuşada keçirilməsi çox böyük siyasi əhəmiyyətə malik olan əlamətdar tarixi hadisə, unudulmayacaq böyük bayramdır. Ona görə də biz bu qurultayı Zəfər Qurultayı adlandırırıq".

> Qarabağ zəfəri dünya azərbaycanlılarını dövlətimizin ətrafında daha sıx birləşdirir

**Millət vəkili Azər Badamov deyib ki, ümummilli lider Heydər Əliyev dünyada yaşayan azərbaycanlıları həmişə həmrəy olmağa və azərbaycançılıq ideologiyası ətrafında birləşməyə çağırış edirdi. O, bütün xarici səfərlərdə ölkədə yaşayan bir qrup azərbaycanlı ilə görüşür, məsləhət və tövsiyələrini çatdırırdı:** "1991-ci il dekabrın 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev dünya azərbaycanlılarının birliyini yaratmağın əhəmiyyətini nəzərə alaraq dekabrın 31-ni Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü elan etdi. O gündən başlayaraq dünyada yaşayan azərbaycanlılar hər il Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününü qeyd edirlər. Ulu Öndər 31 dekabr tarixini bayram elan etməklə dünyada yaşayan azərbaycanlıların vətəninə bağlılığını daha da artırmış oldu. Dünya Azərbaycanlılarının I Qurultayı 2001-ci il noyabr 9-10-da baş tutdu. Qurultayın əsas məqsədi dünyada yaşayan azərbaycanlıları təşkilatlandırmaq və bir amal ətrafında birləşdirmək məqsədilə diaspor komitəsinin yaradılması məsələsini müzakirə etmək idi. Ulu öndər Heydər Əliyev qurultayda demişdi ki, beynəlxalq təşkilatlarla yanaşı, Azərbaycan diasporuna da böyük ehtiyacımız var: "Məmnuniyyətlə qeyd edirəm ki, Azərbaycan diasporu son illər təşkilatlanır və Azərbaycan icmaları, diasporu yaşadıqları ölkədə, ümumiyyətlə, beynəlxalq aləmdə artıq özlərini göstərirlər. Amma bu, bizim diasporun formalaşmasının ilkin mərhələsidir. Hamımız - siz də, biz də çox iş görməliyik ki, Azərbaycanın güclü diasporu yaransın. Müxtəlif ölkələrdə yaşayan azərbaycanlılar daha da güclənsinlər. İqtisadi cəhətdən daha da möhkəmlənsinlər, yaşadıqları ölkələrin ictimai-siyasi həyatında fəal iştirak edə bilsinlər". Beləliklə, 2002-ci il iyulun 5-də Heydər Əliyev "Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılması haqqında" Fərman imzaladı. Komitə dövlət qurumu olaraq dünyada yaşayan soydaşlarımızla işləməyə başladı".

**Deputatın sözlərinə görə, Diasporla İş üzrə Dövlət Komitəsinin qarşısında qoyulan əsas məsələ Azərbaycan həqiqətlərini dünyaya çatdırmaq, dünya azərbaycanlılarını daha sıx birləşdirmək və informasiya müharibəsindən qalib çıxmaqdır:** "2016-cı il iyunun 3-4-də keçirilən Dünya Azərbaycanlıların IV Qurultayında dünya azərbaycanlıların qarşısında duran vəzifələrə toxunan Prezident İlham Əliyev qeyd edib ki. "Azərbaycan həqiqətlərini müxtəlif ölkələrə çatdırmaq üçün burada lazımi tədbirlərin görülməsi haqqında müzakirələr aparılmalıdır, proqram tərtib edilməlidir. Əgər Azərbaycan dövləti bu işdə hər hansı bir formada öz dəstəyini verə bilərsə, biz buna hazırıq. Əsas odur ki, biz bunu planlı şəkildə icra edək". Artıq dünyada 500-ə yaxın diaspor təşkilatımız fəaliyyət göstərir. Diasporla İş üzrə Dövlət Komitəsi fəaliyyətini bu gün yaratdığımız yeni reallığa uyğun qura bilib. 44 günlük Vətən müharibəsi dövründə Komitə dünyanın bir çox ölkələrində azərbaycanlıları birləşdirərək mitinqlər və aksiyalar keçirməklə ədalətli mövqeyimizin dünyaya çatdırılmasında yaxından iştirak edib. Azərbaycan qalib ölkədir və diaspor fəaliyyəti Qələbəmizin daha da möhkəmlənməsi istiqamətində dövlətimizin başçısının apardığı siyasi kursuna uyğun formalaşdırılıb".

**A.Badamov vurğulayıb ki, V Qurultayın Şuşada keçirilməsinin böyük tarixi, siyasi və mənəvi əhəmiyyəti olacaq:** "Əvvəlki qurultaylarda diaspor fəaliyyətimiz əsasən torpaqlarımızın ermənilər tərəfindən işğalına son qoyulması istiqamətində qurulmuşdusa, V qurultayda dövlətimizin başçısı dünya azərbaycanlılarının qarşısında yeni vəzifələr qoyacaq. Düşünürəm ki, bu vəzifələr informasiya müharibəsində mübarizəmizi daha da genişləndirmək, ermənilərin bizə qarşı törətdikləri soyqırımları və vəhşilikləri dünyaya daha geniş şəkildə çatdırmaq istiqamətində olacaq".

# "Ermənistandakı aksiyalarda Paşinyan hakimiyyətinin maraqları var"

## Əziz Əlibəyli: "Basqıların qarşısını almağa çalışır"



**İrəvanda bazar günündən bəri fasiləsiz aksiya davam edir. Aksiyanın təşəbbüsçüsü Vətən Partiyası və Ermənistan Milli Məclisinin iki müxalif fraksiyasından biri - Pativ Unem (Təzim Edirəm) - fraksiyasının rəhbəri Artur Vanetsyandır. Vanetsyan Ermənistan vətəndaşları, erməni xalqını, onun təbirincə, Baş nazir Nikol Paşinyanın "Qarabağ məsələsində birtərəfli güzəştlər siyasətinə" qarşı mübarizəyə qalxmağa çağırır.**

Halbuki, Azərbaycanın Ermənistana təqdim etdiyi və irəli sürdüyü prinsiplər beynəlxalq hüquqa əsaslanır.

Xatırladaq ki, qarşı tərəfə verilən 5 baza prinsipi aşağıdakılardır:

* Dövlətlərin bir-birilərinin suverenliyi, ərazi bütövlüyü, beynəlxalq sərhədlərinin toxunulmazlığı və siyasi müstəqilliyini qarşılıqlı şəkildə tanıması;

* Dövlətlərin bir-birilərinə qarşı ərazi iddialarının olmamasının qarşılıqlı təsdiqi və gələcəkdə belə bir iddianın qaldırılmayacağına dair hüquqi öhdəliyin götürülməsi;

* Dövlətlərarası münasibətlərdə bir-birilərinin təhlükəsizliyinə hədə törətməkdən, siyasi müstəqillik və ərazi bütövlüyünə qarşı hədə və gücdən istifadə etməkdən, habelə BMT Nizamnaməsinin məqsədlərinə uyğun olmayan digər hallardan çəkinmək;

* Dövlət sərhədinin delimitasiyası və demarkasiyası, diplomatik münasibətlərin qurulması;

* Nəqliyyat və kommunikasiyaların açılışı, digər müvafiq kommunikasiyaların qurulması və qarşılıqlı maraq doğuran digər sahələrdə əməkdaşlığın qurulması.

**İrəvanda gedən prosesləri "Şərq"ə dəyərləndirən Sosial Tədqiqatlar Mərkəzinin mətbuat xidmətinin rəhbəri, beynəlxalq məsələlər üzrə ekspert Əziz Əlibəyli bildirib ki, Ermənistan tərəfi hakimiyyət olaraq bir neçə versiyada prosesləri yönləndirir:**

"Vanetsyan kimi şəxslərin əksəriyyəti vaxtilə Paşinyan komandasında təmsil olunub. Onların səmimiyyətinə inanmaq mümkünsüzdür. Vanetsyanla Paşinyan arasında kritik fikir ayrılığı nəyin üzərindədir?! Bu cür məsələlər daha çox blefə bənzəyir. Müxalifət simasında Vanetsyan kimilərin cəmlənməsi heç də Paşinyanın 5 baza prinsipini qəbul etdiyini, onun əsasında sülh müqaviləsinə imza atmasını təhdid edən amil deyil.

Ə.Əlibəyli hesab edir ki, İrəvanda aksiyaların təşkilində Ermənistan hakimiyyətinin ciddi maraqları mövcuddur.

Həm Qarabağa görə güzəştlər, həm sərhədlərin müəyyənləşməsi, həm də sülh müqaviləsinin imzalanmasına yönəlik ictimai rəydəki basqıların bu vasitə ilə qarşısını almağa çalışır. Preventiv davranır. Paşinyan xalqı ələ almağa kifayət qədər yaxındır, imkanı var. Etirazçıların sayı onun hakimiyyətini sarsıdacaq qədər çox deyil".

**Aygün Tahir**

# Xalq özünə daha yaxın namizədə səs verəcək

## Fransada erməni lobbisinin təsir imkanları tamamilə zəifləyib




"Heç bir fransız ölkənin başında irqçi, rasist, radikal siyasətçi görmək istəməz"

İsmayıl Qocayev

**Fransada keçirilən prezident seçkilərinin ilk turunun nəticələri qlobal proseslərin bu ölkənin vətəndaşları üçün əhəmiyyət kəsb etmədiyini bir daha sübuta yetirdi.**

Seçkilərin həm birinci, həm də ikinci turunda aparılan təbliğat kampaniyalarında verilən vədlərin mütləq əksəriyyətinin sosial məsələlərlə bağlı olması Fransada sosial problemlərin son illər ərzində kritik həddə çatdığını göstərir. Hazırda Fransa seçicisini narahat edən əsas problem ərzaq məhsullarının qiymətinin sürətlə artması və ərzaq məhsullarının orta və kasıb təbəqə üçün əlçatan olmayacağı barədə proqnozlardır. Məhz bu amili nəzərə alan fəaliyyətdə olan prezident və eyni zamanda, prezidentliyə namizəd Emmanuel Makronun sosial sferada verdiyi vədlərin ön sırasında əhalinin ərzaqla təmin olunması dayanır. Emmanuel Makron seçki kampaniyası çərçivəsində "France Bleu" telekanalındakı çıxışında qiymət artımı ilə bağlı əhaliyə ərzaq talonlarının verilə biləcəyini deyib. Makron qeyd edib ki, o, yenidən prezident seçiləcəyi təqdirdə kasıb və orta təbəqəni ərzaq məhsullarının bahalaşmasından və yeni böhrandan qorumaq üçün "ərzaq talonu proqramı" hazırlamağı və həyata keçirməyi planlaşdırır. Fransada seçkiöncəsi keçirilən sorğuların nəticələrinə və ekspertlərin rəyinə görə, seçiciləri əhalinin həyat səviyyəsinin və keyfiyyətinin aşağı düşməsi, dini və etnik ziddiyyətlər, sosial infrastrukturun yüklənməsi və digər bu kimi məsələlər narahat edir. "Erməni məsələsi" isə bu siyahıda yer almır. Bu faktın özü də sübuta yetirir ki, bu ölkədə yaşayan ermənilər siyasi hakimiyyətlərin ehtiyac duyduqları halda istifadə etdikləri kiçik və əhəmiyyətsiz geosiyasi bəhanədən başqa bir işə yaramırlar. Seçki kampaniyası Fransada erməni lobbisinin təsir imkanlarının kifayət qədər azaldığını və ölkəmiqyaslı proseslərdə heç bir əhəmiyyətə malik olmadığını nümayiş etdirdi. Bu xüsusda ermənilərin Fransa prezidentliyinə namizədlər - İdalqo və Pekresslə bağlı hesablamaları özünü doğrultmadı. Ermənilər hər iki şəxsin prezidentliyə namizəd kimi Ermənistana səfərindən və Rusiya sülhməramlılarının müvəqqəti səlahiyyət zonasına daxil olan Azərbaycan ərazilərində "zühurundan" da nəticə etibarilə heç bir qazanc əldə edə bilmədilər. Bu isə sübuta yetirdi ki, erməni lobbisinin gücü haqqında deyilənlərin Ermənistanın mif və əfsanələrdən ibarət "tarixi" kimi reallıqla yaxından-uzağa əlaqəsi yoxdur. Ermənilər təsir imkanları barədə şişirdilmiş və saxta iddialardan ibarət təbliğatlarından özlərini siyasi dairələrə sırımaq üçün istifadə edirlər. Erməni lobbisi isə əslində, yalnız bələdiyyə səviyyəsində təsirə malikdir, reallıqda isə nüfuzu kifayət qədər aşağıdır. Makron çox güman ki, seçicilərin daxili sosial problemlərdən narahatlığını, həmçinin, erməni lobbisinin zəif nəticələrini və prinsipsizliyini nəzərə alaraq əvvəlki kimi erməni məsələsinə böyük diqqət ayıra bilməyəcək".

**Siyasi şərhçi Turan Rzayev "Şərq"ə açıqlamasında bildirib ki, Makronun rəqiblərinin az faiz səs toplaması, gözlənilən etimadı doğrultmamasının başlıca səbəbi namizədlərin verdiyi vədlərlə bağlıdır. Ekspert deyib ki, Le Penin irqçi davranışları, qaradərili insanlara radikal mövqe sərgiləməsi fransızların onlara etimadını azaldır:** "Le Penin son açıqlamalarında açıq-aşkar rasist, irqçi, islamafob düşüncələri görə bilərik. Azanın qadağan olunması ilə bağlı çıxışları da müsəlman dünyasında heç də xoş qarşılanmadı. Ermənilər məhz o səbəbə görə əsas dəstəyi Le Penə verirlər. Ancaq hər şey seçkinin ikinci turunun nəticələrindən asılı olacaq. Heç bir fransız ölkənin başında irqçi, rasist, radikal siyasətçi görmək istəməz. Makron bu müstəvidə öz rəqiblərindən daha loyaldır. Əslində erməni lobbisi Fransa seçkilərində çoxtərəfli oynayır, bütün namizədlər üzərindən "dəstək kampaniyası" həyata keçirirlər. Hesab edirəm ki, Fransada yaşayan soydaşlarımız, türk əsilli Fransa vətəndaşları da seçki prosesində aktiv olmalı, daha loyal namizədin kampaniyasında iştirak etməlidirlər. Bu prosesdə erməni lobbisinin qarşısını almaq, onların öz məqsədlərinə çatmasına mane olmaq lazımdır".



# MEDİA-nın İcraçı direktoru BSU-da görüş keçirib

## Əhməd İsmayılov tələbələri maraqlandıran çoxsaylı sualları cavablandırıb

**21 aprel tarixində Medianın İnkişafı Agentliyinin (MEDİA) İcraçı direktoru Əhməd İsmayılovun Bakı Slavyan Universitetinin (BSU) jurnalistika ixtisası üzrə təhsil alan tələbələri ilə görüşü keçirilib.**

"Şərq" xəbər verir ki, tədbirdə Medianın İnkişafı Agentliyinin əməkdaşları, BSU-nun Humanitar və sosial elmlər fakültəsinin dekanı Sevda Axundova, Jurnalistika kafedrasının müdiri, siyasi elmlər doktoru Vüqar Rəhimzadə, universitetin professor-müəllim heyəti və tələbələr iştirak ediblər.

BSU-nun Jurnalistika kafedrasının müdiri Vüqar Rəhimzadə tələbələrin ölkədə həyata keçirilən media islahatlarının gedişi ilə tanış olması baxımından bu görüşün xüsusi əhəmiyyət kəsb etdiyini vurğulayıb.

**MEDİA-nın İcraçı direktoru Əhməd İsmayılov Azərbaycan mətbuatının keçdiyi inkişaf yolundan, dövlətimizin medianın inkişafı istiqamətində atdığı addımlardan, dövrün tələblərinə uyğun olaraq aparılan islahatlardan geniş bəhs edib.**

Əhməd İsmayılov Azərbaycan mediasının ölkəmizdə və dünyada baş verən proseslərin cəmiyyətə daha dolğun şəkildə çatdırılması, cəmiyyətin informasiya tələbatının ödənilməsi istiqamətində göstərdiyi səylərdən, daim yeniliyə, təkmilləşməyə maraq göstərməsindən, müasir dövrün yaratdığı imkanlardan maksimum bəhrələnməsindən danışıb. O, "Media haqqında" Azərbaycan Respublikası Qanununun bu sahədə hüquqi-normativ bazanın yaradılmasını və jurnalistlərin peşəkarlığının artırılmasını, digər mühüm məqamları özündə ehtiva etdiyini vurğulayıb.

*Görüşdə tələbələri maraqlandıran çoxsaylı suallar cavablandırılıb.*




# Ukrayna danışıqlar masasında "əli boş" oturacaq

## Fuad Abbasov: "Putin müharibəyə Zelenski ilə razılığa gəlmək üçün başlamayıb"



**Türkiyənin Xarici işlər naziri Mövlud Çavuşoğlu Rusiya Prezidenti Vladimir Putinlə Ukrayna Prezidenti Volodimir Zelenskinin Türkiyədə görüşməsi təklifinin hələ də masada olduğunu bildirib. "İndi görüşün vaxtı barədə danışmaq çətindir, amma həqiqətən ümid edirik ki, bu, çox tezliklə baş verəcək", - nazir "CNN Türk"ə müsahibəsində deyib.**

Həmçinin qeyd edək ki, bu gün Rusiyanın Müdafiə naziri Sergey Şoyqu Rusiya Prezidenti Vladimir Putinə Mariupol şəhərinin nəzarətə götürüldüyünü elan edib. S.Şoyqu həmçinin bildirib ki, mühasirə zamanı Mariupolda Ukrayna Silahlı Qüvvələrinin 2 000-ə yaxın hərbçisi olub. O, həmçinin əlavə edib ki, ukraynalı hərbçilər hazırda zavodun ərazisində mühasirədədirlər. Öz növbəsində V.Putin Mariupoldakı "Azovstal" sənaye zonasına hücumu məqsədəuyğun saymadığını açıqlayıb.

**Hazırkı kritik vəziyyətdə iki liderin görüş ehtimalını "Şərq"ə şərh edən tanınmış jurnalist, analitik Fuad Abbasov bildirib ki, Vladimir Putin yalnız Ukraynanın məğlubiyyəti halında görüşə razı ola bilər:**

"Putin Zelenski ilə görüşmək istəsə, bu ancaq Ukraynanın məğlubiyyəti, Krımın təsdiq olunmasını, Luqansk və Donetskin "tanınması" haqqında ola bilər. Əlbəttə, Mövlud Çavuşoğlu istəyir ki, Qaradəniz üzərində qonşuları bir-biriləri ilə savaşmasın və danışıq yolu ilə problemi həll etsinlər. Amma Putin müharibəni Zelenski ilə razılığa getmək üçün, ordularını geri çəkmək üçün başlamayıb. Əgər Putin görüşə razı olarsa, əminəm ki, sadəcə Ukraynanın məğlubiyyəti haqqında olacaq. Bundan başqa hər hansısa bir mövzu haqqında Putinin Zelenski ilə görüşünü təsəvvür edə bilmirəm. Hazırda hamı istəyir ki, Rusiya öz ordusunu geri çəksin, Luqansk və Donetsk sərbəst buraxılsın və Krım Ukraynaya qaytarılsın. Amma Rusiya bunu heç eşitmək belə istəmir. Ona görə, hesab edirəm ki, görüşmə baş tutsa, hətta Putin də buna razılıq versə, Zelenski buna qarşı çıxacaq. Çünki Zelenski onun sözlərini qəbul etmir".

**Fuad Abbasovun sözlərinə görə, Rusiya ictimaiyyəti öz hökumətlərinə yetəri qədər təzyiq göstərə bilməyib:**

"Əlbəttə, dünya ictimaiyyəti istər iqtisadi, istərsə də humanitar cəhətdən Rusiyaya yetərli qədər təzyiq göstərdi. Dünya xalqları Buçadakı, Mariupoldakı qətliamları görüb öz hökumətlərinə təsir göstərdilər və Ukraynaya yardım göstərilməsini tələb etdilər.

Amma Rusiya ictimaiyyəti öz iqtidarına təsir göstərə bilirmi? Onlar bu tələbləri öz hökumətlərinə edə bilmədilər. Çünki Rusiya hökuməti ölkədə tamamilə söz azadlığını məhv edib. Baş verənləri "müharibə" adlandıranlara 3 il, silahlı qüvvələrə qarşı çıxana 15 il cəza belə verir. Bunun qorxusundan da heç kim səsini çıxara bilmir. Ona görə də yaxın gələcəkdə Putinin qoyduğu tələbləri geri çəkəcəyinə inanmıram. Söz yox ki, Şoyqu Putinin eşitmək istədiyini deyir, görmək istədiyini göstərir. Amma bu o demək deyil ki, Ukrayna ordusu geri çəkilir. Ola bilsin, Mariupolda şəhərin böyük bir hissəsi rusların əlindədir. Lakin "Azovstal"ın hələ də qorunduğu xəbərləri gəlir. Bu səbəbdən heç də demək olmaz ki, Ukrayna danışıqlar masasında "əli boş" oturacaq".

**Çimnaz**

# "Vatikandan sənəd əldə etmişəm"

## Zaur Əliyev: "Malta məhkəməsində "erməni soyqırımı"nın saxtalığı isbatlanıb"



**Hər il aprelin 24-də erməni lobbisinin fəallığı artır. Beynəlxalq ictimaiyyəti uydurma mifə inandırmaq üçün yeni səylər göstərilir.**

Xocalı faciəsi kimi real soyqırımı aktına göz yuman erməni şovinistləri qondarma "soyqrımı"na siyasi və hüquqi don geyindirmək üçün hər yola əl atırlar. Ancaq tarixi faktlar və sənədlər sübut edir ki, Osmanlı dövləti ərazisində ermənilərin planlı şəkildə kütləvi məhv edilməsi iddiaları yalnız cəfəngiyyatdır. Sadəcə ayaq tutub "yeri(dilən)yən" yalandan ibarətdir.

Uydurma "soyqrımı" iddiası özlərini işğalçılıq faktından yayındırmaq məqsədi güdür. Bu yolla təkcə qardaş Türkiyənin deyil, ümumən türk dünyasının, o cümlədən Azərbaycanın beynəlxalq nüfuzuna xələl gətirməyə çalışırlar.

Qeyd edək ki, Argentina, Belçika, Kanada, Fransa, İtaliya, Rusiya və Uruqvay "erməni soyqırımını" tanıyan 20-dək ölkənin sırasındadır. Ötən il də ABŞ Prezidenti Co Bayden 1915-ci il hadisələrini soyqırımı kimi tanıyıb.

Beləliklə, Bayden 1981-ci ildəki açıqlamasında eyni sözü işlədən Ronald Reyqandan bəri "soyqırım" ifadəsini istifadə edən ilk ABŞ prezidentidir.

Qondarma "erməni soyqırımı" iddiasını tanımaqla çox ciddi və tarixi səhvə yol verib.

**Etnoqrafiya və Antropologiya İnstitutunun elmi katibi, siyasi elmlər üzrə fəlsəfə doktoru Zaur Əliyev bildirib ki, qondarma "erməni soyqrımı" onların psixologiyasında ayaqda qalmaq, erməni kimliyini qoruyub saxlamaq üçün bir mifdir:**

"Əsasən kilsənin siyasətidir. Kilsə hər il "soyqırımı" məsələsini gündəmə gətirir və əhali arasında külli miqdarda pul toplayır. Forumlar keçirirlər. Həmin forumlara pul göndərirlər. Həmin pullar kilsənin hesabında qalır. Ermənilər guya, topladıqları pullarla konqresmenləri, senatorları almaq üçün lobbiçiliyə xidmət göstərirlər.

Amerikada bir neçə erməni ilə görüşmüşəm. Prosesi izləmişəm. Onlar özləri də deyir ki, erməni xalqını bir ideya altında saxlaya bilmirlər. "Böyük Ermənistan" ideyasına ermənilərin çoxu inanmır. Belə bir tarixi dövlətin mövcudluğunu düşünmürlər. Digər variant kimi erməniləri birləşdirmək üçün qondarma soyqırımı fikrini irəli sürürlər. Həmin dövrün sənədlərini, Britaniya, Osmanlı, Rusiya arxivlərini araşdırmışam. Hətta Britaniya Baş Prokurorluğunun sənədlərini ölkəmizə gətirdim. Malta məhkəməsində sözügedən "soyqırımı" tədqiq edilib. Hadisənin baş vermədiyi isbatlanıb. Malta məhkəməsi Osmanlı dövründə hakimiyyətdəki insanları azadlığa buraxıb.

Ermənilər artıq idarədən çıxdıqlarına görə, əsassız "soyqrımı" ortaya atırlar.

**"Fransa arxivindən şəkil kolleksiyası almışam. Həmin lenti fransız jurnalist çəkib. Terrorçu daşnaksütyunun üzvləri türk əsgəri paltarı geyinib"**

Başqa yol tapa bilməyəcəklər. 44 günlük müharibə erməni mifini dağıtdı. Ermənilər özlərini məğlubedilməz xalq, güclü sayırdılar. Azərbaycan Ordusu ermənilərin qorxaq, cılız xalq olduqlarını sübut etdi".

**Z.Əliyevin sözlərinə görə, ruslar onların arxasında dayanmışdı:**

"1813-cü ildə Gülüstan sülh müqaviləsinin imzalanmasından 44 günlük müharibəyədək ermənilər məğlubedilməz olduqlarını düşünürdülər. Rusiyanın köməyi ilə istədiklərinə çatacaqlarını fikirləşirdilər. Xristian amilindən yararlanaraq dünyanın nəhəng dövlətlərini birləşdirə biləcəklər. 1919-cu ildə Paris sülh konfransında Ermənistanın müstəqilliyindən daha çox xristian ermənilərin məhv olmasını, dövlətə ehtiyac duyulduğunu gündəmə gətirmişdilər. Lakin artıq gücün qarşısında heç kim dayana bilməz. Ölkəmizin xristianlara qarşı münasibəti ermənilərin onlara münasibətindən qat-qat yüksəkdir. Çünki alban, pravoslav kilsələri dağıdılıb. Ermənistan sadəcə xristian amilindən yararlanır. Dünya dövlətləri erməni yalanlarının üzə çıxdığını görür. Ermənilər xristian təəssübkeşləridilərsə, niyə alban, pravoslav kilsələrini dağıdıblar?".

**Z.Əliyev yaxın 3-5 il ərzində ermənilərin belə mifdən tamamilə əl çəkəcəkəyini vurğulayıb:**

"Xarici dil bilən tədqiqatçılarımızın sayı çoxalır. Dünyanın bir çox ölkəsində sənədlər üzə çıxır. Ermənilərin uydurması ifşa olunur. 3 il əvvəl Vatikandan əldə etdiyim sənəd mövcuddur. Həmin ərazilərdə olan yepiskopun, Vatikan Papasının yazdığı məktub var. Ermənilərə qarşı "soyqırımı" əslində özləri həyata keçirib.

Fransa arxivindən şəkil kolleksiyası almışam. Həmin lenti fransız jurnalist çəkib. Terrorçu daşnaksütyunun üzvləri türk əsgəri paltarı geyinib.

Ermənilər köçürülən həmvətənlərinin qızıllarına yiyələnməkdən ötrü 50 mindən çox özünküləri öldürüblər. Ermənilər "Böyük Ermənistan" və "soyqırımı" ideyasının puça uğradığını görür".

**Z.Əliyevin qənaətincə, Paşinyan ermənilərin gözünü açıb:**

"Erməni icmasının yeganə çıxış yolu iddialarından əl çəkmək, Türkiyə və Azərbaycanla sərhədləri açıb, tərəqqiyə nail olmaqdır. Yüksək vəzifəliləri bunu anlayır. Xocalı şahidləri, əsirləri ilə danışmışam. Həmin gün Sarkisyan, Koçaryan azərbaycanlılara qarşı işgəncə törədən dəstələrin yanında olub. Onlar bilir ki, faktlar üzə çıxsa, onları Haaqa məhkəməsi, beynəlxalq hüquq gözləyir. Əməllərini ört-basdır etməyə çalışırlar. Lakin onlar məhkəmə qarşısında cavab verəcəklər. Baydenin hərəkətləri, sözləri anlaşılmazdır. ABŞ cəmiyyəti üçün Baydenin prezident seçilməsi elə Amerikanın xarici siyasətinin əksidir. Qərbin demokratiya anlayışını Bayden çıxışlarıyla aşağı endirir".

**Aygün Tahir**

# Zəfər qurultayı İranı qıcıqlandırır

## Sədrəddin Soltan: “İran hakimiyyəti istənilən yerdə dünya azərbaycanlılarının toplaşmasından xoflanır”






**Aygün Tahir**

**Son vaxtlar İranın Azərbaycan əleyhinə təxribatları tənqid edilir. İran Azərbaycan münasibətləri haqda pozitiv düşünmək imkanı yaranan kimi suları bulandıranlar ortaya çıxır. Ekspertlər İranın sadəcə ”gözdən pərdə asdığını” söyləyir.**

Dünya Azərbaycanlılarının V Qurultayının Şuşada keçirilməsi İranın bəzi dairələrini əndişəyə salıb. 65 ölkədən 400 nəfərə yaxın diaspor nümayəndəsinin iştirakı ilə keçiriləcək tədbir fonunda İran mediasının Zəfər Qurultayına qarşı təxribat xarakterli materiallar yayır. Bu barədə ”Azerbaycan-ruznamesi.org” ”Azad İran” teleqram kanalına əsasən xəbər paylaşıb. Respublikamız xüsusilə də yaxın qonşu və müsəlman dövlət hesab etdiyi İran İslam Respublikası ilə əlaqələrinin hər zaman yüksələn xətlə inkişafına çalışıb, onun daxili işlərinə müdaxilə kimi dəyərləndiriləcək hər hansı addıma yol verməyib. Lakin iddialara görə, onlar yaxın günlərdə Şuşada keçiriləcək Zəfər Qurultayını pantürkistlərin anti-İran toplantısı adlandırıblar. Hətta bunu İranı hər tərəfdən mühasirəyə almaq cəhdi kimi dəyərləndiriblər.

Bununla yanaşı İran hökuməti Urmiyanı ”kürdləşdirəndən” sonra indi də Təbrizi ”erməniləşdirmək” eşqinə düşüb. ”Azad İran” teleqram kanalının xəbərinə görə, İran hökumətinin rəsmiləri Təbrizdə ermənilərin muzeyinin açılacağını söyləyiblər. Qeyd etmək lazımdır ki, elə Şərqi Azərbaycan vilayəti və Təbrizdə azərbaycanlıların tarixi abidələri dövlət tərəfindən təmir edilmədiyindən dağılıb, bir çoxu isə dağılmaq üzrədir. Belə olan halda İran dövlətinin bir ovuc ermənininin orada özlərinə aid olduğunu iddia etdikləri tikililəri təmir etməkdə hansı məqsəd güddüyü sual doğurur.

Hazırkı durumu ”Şərq”ə dəyərləndirən politoloq Sədrəddin Soltan İran hakimiyyəti ilə əhalisinin ayrı olduğunu vurğulayıb. Bu siyasəti yürüdən İran mərkəzli fars düşüncə sistemidir:

”Hazırda islam ideologiyalı olduqlarını iddia etsələr də, hakimiyyətdə fars düşüncə sisteminin təmsilçiləridir. Onlar dünyada baş verənlərə siyasi-ideoloji mövqedən baxırlar. Azərbaycan Respublikasının mövcudluğuna, torpaqların azadlığına qovuşmasına, Azərbaycan Türkiyə, NATO, İsrail və s. münasibətlərinə belə mövqedən yanaşırlar. İran hakimiyyəti ”dünya azərbaycanlıları” ifadəsindən qıcıqlanır. Çünki gözləri önünə İrandakı 30 milyondan çox Azərbaycan türkü gəlir. İlk qurultaylar vaxtı da oxşar bəyanatlar səsləndirmişdilər. İranın müxtəlif təbilğat vasitələri duruma qısqanclıq göstəriblər. İran tərəfi guya, Dünya Azərbaycanlıları bir yerə yığışanda İranın dağılması ilə bağlı nəyinsə müzakirəsini aparacaqlarını düşünür. II Qurultayda Prezident İlham Əliyev deyib ki, 50 milyonluq Azərbaycanın Prezidentidir. Yəni dünya azərbaycanlılarının vətəni Azərbaycandır. Rusiyadakı Dərbənd, Gürcüstandakı Borçalı, həmçinin Orta Asiya, Əfqanıstan, Amerika, Avropadakı azərbaycanlılar Qarabağın azad olunmasını arzulayırdılar. İndi Azərbaycan hökuməti onların istəyini reallaşdırıb”.

**S.Soltanın sözlərinə görə, dünya azərbaycanlıları düşmən üzərində qələbə qazandıqları günü Qurultayda qeyd edəcəklər:**

”İran qısqanc davranır. Elə bilir, toplaşanlar mütləq İranın dağılmasına qərar verəcəklər. Toplantının mahiyyəti həmrəyliyi nümayiş etdirməkdir. Dünya azərbaycanlılarının vətəni eyni zamanda Azərbaycan Respublikasıdır. Dünya Azərbaycanlıları Qurultayının fəlsəfəsi qonşulara zərər yetirmək deyil. Regionda bütün dövlətlərin dinc yaşamağı, sıx əməkdaşlığını özündə ehtiva edir. İran tərəfi isə həmişə bu niyyətlərə qarşı dayanıb. Belə deyim var: ”Xain xoflu olar”. İranda Azərbaycan türkünün dövlət hesabına öz ana dilli bir sinif məktəbi belə yoxdur. Azərbaycan türkünün milli-mədəni haqqını təmin etməyən İran hakimiyyəti istənilən yerdə dünya azərbaycanlılarının toplaşmasından xoflanır. Dünyada, regionda bütün ölkələri qarışdıran İran hakimiyyətidir. Suriyada, İraqda, Yəməndə İranın İnqilab keşikçiləri qvardiyası fəalliyət göstərir. İran doktrinasının Ayətullah Xomeyninin ”İslam inqilab doktrinası”nın yayılması ilə bağlı İran hakimiyyəti müxtəlif ölkərə xeyli miqdarda vəsait xərcləyir. İranın Ali dini lideri Xomeyninin nümayəndəsi Ocaq Necat Azərbaycandan biabırçı şəkildə yola salındı. Bu da sübut etdi ki, İran hakimiyyəti region ölkələrinə qarışır, islamı deyil, ölkələri qarışdırmağı təbliğ edir”.

**Politoloqun fikrincə, İran hakimiyyəti dini azlıqları himayə edirmiş kimi özünü göstərməyə çalışır. Ona görə də adətən erməniləri, az sayda olan yəhudiləri irəli verir:**

”Axır vaxtlar ölkədən xristian və yəhudilərin köçü daha da artıb. Özünü xristian havadarı kimi göstərən Tehran hakimiyyəti guya onların hansısa mədəni abidələrinin təmirinə səy göstərir, himayəsində saxlayır. Halbuki, bütün şəhərlərdə Azərbaycan türkünə məxsus xeyli sayda mədəni abidələr dağılmış vəziyyətdədir. İran hakimiyyəti bərpası üçün heç bir addım atmır.

İranda insanlar xristian dinini qəbul edirlər. Əgər İran ermənilər timsalında xristian dininə xoş münasibət bəsləyirsə, onda ölkədə niyə xristian dinini qəbul edən vətəndaşları cəzalandırır?! İran konstitusiyasına əsasən, Zərdüştilərin hüquqlarının müdafiəçisi kimi göstərilir.

Lakin həmişə İran hakimiyyətinin təqibinə məruz qalırlar. Deməli, onların niyyəti ermənilərin timsalında dini azlığın hüquqlarını, mədəni haqlarının müdafiəsi deyil, özünü erməni havadarı kimi göstərməkdir. İran hökuməti ölkə ərazisində dünya ermənilərinin toplantısını keçirib.

Toplantı, adətən, Güney Azərbaycanın Çaldıran yaxınlığında Qara Kilsə ərazisində keçirilir. Çoxlu sayda İran rəsmisi gəlir. Ermənistan -İran qardaşlığından danışırlar.

Elə muzeyin açılmasının arxasında da ermənilərdən həm Quzey, həm də Güney Azərbaycanlılara alət kimi yararlanmaq məqsədi dayanır”.



# Kimsəni dinləmir

## Putin işğalı davam etdirəcək

**Yüksək vəzifəli Kreml rəsmiləri Ukraynaya müdaxiləni ”fəlakətli” səhv hesab edirlər. ”Bloomberg”ə danışan Kreml rəsmiləri Putinin işi pərdə arxasında idarə etməyə başladığı üçün çox ciddi səhv hesablamaların edildiyini bildiriblər.**

Bildirilir ki, işğal nə qədər uzun davam etsə, Rusiya Prezidenti Vladimir Putin bir o qədər inadkar və qorxulu olacaq. Məlum olub ki, Federal Təhlükəsizlik Xidmətinin (FTX) xarici kəşfiyyat bölməsinin rəisi, general-polkovnik Sergey Beseda ev dustaqlığına buraxıldıqdan sonra Moskvanın yüksək rejimli Lefortovo həbsxanasına köçürülüb. Getdikcə aqressivləşən Rusiya liderinin başlatdığı genişmiqyaslı əməliyyatda bir çox FSB məmuru ”işğaldan əvvəl Ukraynadakı real vəziyyətlə bağlı Kremlə yalan məlumat ötürmək” iddiası ilə saxlanılıb. Üstəlik, ətrafına getdikcə inamsızlaşan Putinin planlarını insanlardan gizlətdiyi və buna görə də Kremlin bir çox məsələlərdə hazırlıqsız yaxalandığı üzə çıxıb.

***Rusiya prezidenti Ukraynaya hücum planını əksər Kreml rəhbərlərindən gizli saxladığı üçün ölkə çöküb***

Adının açıqlanmasını istəməyən on mənbə ”Bloomberg”ə deyib ki, Putin işğalı davam etdirəcək və bu qərar Rusiyanı illərlə təcrid və digər ölkələrlə gərginliyə ”məhkum edəcək”. Kreml rəsmiləri xəbərdarlıq edib ki, Rusiya şikəst iqtisadiyyat və zəifləyən qlobal təsir riski daşıyır. Onlar həmçinin qorxularını ifadə ediblər ki, əgər onun Ukraynaya müdaxiləsi uğursuz olarsa, Putin düşmənlərinə qarşı nüvə silahından istifadə kimi sərt tədbirlərə əl atacaq. Rusiyanın Xarici işlər naziri Sergey Lavrov da ”indiki mərhələdə” nüvə silahından istifadə etmək fikrində olmadıqlarını bildirərək, bu qorxuların əsassız olmadığını göstərib.

Keçən ay Kreml rəsmisi bildirib ki, Putin işğal planlarını əksər yüksək vəzifəli məmurlardan gizli saxladığı üçün Qərbin Rusiya banklarının SWIFT bank sistemindən çıxarılması kimi sərt maliyyə sanksiyalarını ”heç kim hesablamamışdı”. Rusiya təhlükəsizlik xidmətləri üzrə ekspert Andrey Soldatov bildirib ki, Federal Təhlükəsizlik Xidməti pis keçmiş işğaldan məyus olmağa başlayıb. İndiyədək Kremldən yalnız bir yüksək vəzifəli məmur istefa verib. 2020-ci ildən Putinin xüsusi nümayəndəsi və iqtisadçısı olan Anatoli Çubays Rusiyanın Ukraynanı işğal etməsinə etiraz etmək üçün bir daha geri qayıtmayacağı iddia edilən Rusiyanı tərk edib. Çubays Rusiyanı tərk etdikdən sonra niyə istefa verdiyini və hara getmək istədiyini hələ izah etməyib. Amma Kremldə çoxları istefa verməkdən qorxurlar. Siyasi məsləhətçi Tatyana Stanovaya ”Bloomberg”ə deyib:

”Putin öz rejimini əsasən artan xalq dəstəyi üzərində qurdu ki, bu da ona elit nəzarəti verdi. Razılaşmaya, müzakirəyə yer yoxdur, hamı prezidentin əmrlərinə tabe olmalı, ona əməl etməlidir. Nə qədər ki, Putin vəziyyəti nəzarətdə saxlayacaq, insanlar da onun ardınca gedəcək”.

**Çimnaz**



# Qırğızıstanla əlaqələr Türk Dövlətləri Təşkilatını daha da gücləndirəcək

## “Yerləşdiyimiz coğrafi məkan və tarixi şərait bizi daha çevik və orta mövqedə dayanan siyasət yürütməyə sövq edir”

**Aprelin 20-də Bakı Qırğızıstan Prezidenti Sadır Japarovun səfərinə şahidlik etdi. Japarov Azərbaycanın dövlət başçısı İlham Əliyevlə görüşdü və xoş atmosferdə müzakirələr aparıldı. Japarovun Bakıya yol alması qlobal nizamda özünə həlledici mövqe tutmağa çalışan Türk Dövlətləri Təşkilatının (TDT) güclənməsi baxımından önəmlidir.**

Hərçənd, Qırğızıstanın türk dövlətləri içərisindəki potensialı digərlərinə nisbətdə zəifdir. Ona görə də zəif nöqtələrin tapılıb boşluqları doldurmaq üçün ikitərəfli münasibətlərə yeni məzmun yükləmək zərurəti yaranır. Azərbaycan Cənubi Qafqazdakı postmünaqişə reallıqlarında atdığı addımları strateji müttəfiqi Türkiyənin ayaq səsləri ilə uzlaşdırır. Eynilə də Ankara analoji mövqedən çıxış edir. Bu həm Şuşa Bəyannaməsinin maddələrinin tələblərindən, həm də onun da fövqündə dayanan, lakin açıqlanmayan bəzi məsələlərin tələblərindən irəli gəlir.

Buna görə də Bakı-Bişkek münasibətlərinin mövcud dünya nizamındakı əlaqələrini Türkiyə-Qırğızıstan amili kontekstində dəyərləndirmək lazımdır. Türkiyə regional güc olduğundan Qırğızıstanın təhlükəsizliyinə sərmayə yatırır və bu ölkədə sabitliyin, inkişafın qorunmasında maraqlıdır. Əlaqələrin çərçivəsi siyasi və institusional transformasiya prosesini sürətləndirir.

**Vəhdət Partiyasının sədr müavini Vasif Əfəndiyev “Şərq”ə deyib ki, Qırğızıstan prezidentinin Bakıya səfəri son illər türkdilli dövlətlərin birliyi çərçivəsində əsası qoyulmuş müttəfiqlik əməkdaşlığının davamıdır. Analitik vurğulayıb ki, Azərbaycanın Qırğızıstanla daha sıx əməkdaşlıq əlaqələrinin qurulması 2009-cu ildə Naxçıvan zirvə toplantısında başlanılıb:**

“1992-ci ildə Türk dövlətlərinin dövlət başçıları tərəfindən əsası qoyulmuş Türk Şurasının - Qazaxıstan, Qırğızıstan, Türkiyə və Azərbaycanın təsisçiliyi ilə strateji tərəfdaşlığın yeni formatı müəyyən edildi. 2021-ci ildən isə bu təşkilat rəsmi olaraq Türk Dövlətləri Təşkilatı statusunu aldı. Qırğızıstan prezidentinin Bakıya səfəri və bir neçə mühüm sazişin bağlanması ikitərəfli münasibətləri daha da sıxlaşdıracaq. Bununla yanaşı Japarovun səfəri Avropadan Çinə qədər uzanan ipək yolu üzərində güclü hərbi-siyasi və iqtisadi kəmərin yaradılması üçün qoyulmuş bünövrənin təməlinin möhkəmləndirilməsinə xidmət edir. Hazırda davam edən Rusiya-Ukrayna savaşı dünyada özünümüdafiə instinktinin necə əhəmiyyətli olmasını sübut etdi. Bir çox ölkələr strateji məhsullarının və ərzaq mallarının ixrac etdirilməsini dayandırdılar. Hər bir ölkə dünyada gedən proseslərin ən pis və çətin variantlarına hazır olmaq məcburiyyətindədir. TDT çətin günlərdən sığortalanmaq üçün ən əlverişli birliyə çevrilməlidir”.

*V.Əfəndiyev qeyd edib ki, əlaqələrimizi daha da genişləndirərək Pakistan, Çin və Hindistanla da geniş əməkdaşlıq müqavilələri bağlamaq barədə düşünməliyik:* “İran və Əfqanıstanla da xüsusi şərtlərlə ciddi müqavilələr imzalanmalıdır. Yerləşdiyimiz coğrafi məkan və tarixi şərait bizi daha çevik və orta mövqedə dayanan siyasət yürütməyə sövq edir. Tam olaraq avropalı deyilik, Şərqin həyat tərzinə də uyğun gəlmirik. Daha doğrusu, tam olaraq bir istiqamətə inteqrasiyamız mümkün deyil. Ona görə də Avropanın insan haqları və demokratik dəyərlərini, eləcə də türk ailə münasibətlərini qoruyub saxlamaqla tarazlığı təmin etməyə çalışmalıyıq”.

**İsmayıl Qocayev**

# Zelenski müharibə istəmir

## Putin səmimi niyyətlə müzakirə masasına əyləşərsə, savaş bitə bilər

**İsmayıl Qocayev**

**Ukrayna Prezidenti V.Zelenski növbəti dəfə Rusiya lideri Vladimir Putinlə görüşə hazır olduğunu bildirib. Onun sözlərinə görə, prezidentlərin görüşü üçün Rusiya tərəfinin müharibənin başa çatması ilə bağlı söz deməsi, həmçinin görüşün gününü və yerini açıqlaması lazımdır:**

”Biz hər şeyə hazırıq. İşğal olunmuş Krım, Donbass məsələlərini müzakirə etməyə hazırıq - bu məsələləri həll etmək lazımdır. Qoşunların Ukrayna ərazisindən çıxarılması ilə bağlı məsələlər də həll olunmalıdır. Rusiya Federasiyası heç olmasa, fevralın 24-də keçdiyi xəttə geri çəkilməlidir”. Zelenskinin fikrincə, Ukraynaya təzyiq göstərmək mümkün deyil: ”Biz bir neçə dəfə demişik ki, mən fərqli prezidentəm, biz başqa dövlətik, hamımızı Ukraynaya sevgimiz birləşdirir, ona görə də həmişə danışıq tərəfdarıyıq”. Ukrayna rəhbəri hesab edir ki, Putinlə görüş üçün Rusiya Federasiyası prezidentinin özünün istəyi lazımdır: ”Ruslar, nəhayət, atəşi dayandırmalıdır, çünki heç kim heç nəyə çatmayacaq və Ukrayna dövlətinin başçısı ölkəni tərk etməyəcək. Mən bürokrat deyiləm, görüşümüzə hazırlaşmağa ehtiyacım yoxdur. Mənə Rusiya tərəfinin deməsi lazımdır ki, müharibəni bitirmək istəyirlər, görüşəcəyimiz gün və yeri təyin etsinlər, daha heç nə lazım deyil”. Ukraynanın Prezident Ofisinin rəhbərinin müşaviri Mixail Podolyak da deyib ki, müharibə prezidentlər - Zelenski və Vladimir Putin arasında birbaşa danışıqlarla yekunlaşa bilər. Bundan əlavə, Ukrayna tərəfinin mövqeləri hüquqi cəhətdən təsdiqlənməlidir: ”Ukrayna tərəfinin hüquqşünasları, məsləhətçiləri və danışıqlar qrupu bu gün bunun üzərində işləyir. Buna görə də ümid edirik ki, bu danışıqlarda Prezident Volodimir Zelenskinin mövqeyi son dərəcə güclü olacaq”. Onun fikrincə, Ukrayna prezidenti danışıqlar zamanı ölkə üçün əsas və prinsipial olan məqamları qarşı tərəfə çatdıra biləcək: ”Biz ölkədə vəziyyətin inkişafını gözləməliyik. Ölkənin şərq hissəsində hücumun nə qədər ciddi olacağını qiymətləndiririk”. Türkiyə Xarici işlər naziri Mövlud Çavuşoğlu isə müharibəyə görə bəzi Qərb ölkələrini ittiham edib. Çavuşoğlu deyib ki, NATO ölkələri arasında Ukraynadakı müharibənin davam etməsi arzusunda olanlar var: ”Müharibə davam etsin, Rusiya daha da zəifləsin deyə düşünürlər. Ukraynanı rəqabət meydanı kimi görmək doğru deyil. Amma təkcə buna görə yox. Meydanda şərait çətinləşdikcə danışıqlar da çətinləşir. Yəni bu vəziyyəti sadəcə müharibənin bitməsini istəməyənlərə aid etməmək lazımdır”.



***"İndiki halda Ukraynanın müharibəni dayandırması, Moskvanın Kiyev qarşısındakı şərtlərini daha da ağırlaşdıracaq"***

**Azərbaycan Demokrat Partiyasının sədri Sərdar Cəlaloğlu ”Şərq”ə bildirib ki, əslində liderlərin görüş fikri Moskva tərəfindən gündəmə gətirilib. Ukrayna isə sadəcə buna müsbət cavab verdiyini açıqlayır:** ”Nəzərə alaq ki, müharibəni, işğalı başladan Rusiyadır. Ukrayna müharibə istəmir və problemlərin çözümünün yollarını axtarır, görüş təklif edir və s. Həm də öz tələblərini ortaya qoyur. Kiyev tələb edir ki, onun ərazi bütövlüyünə, suverenliyinə hörmət edilsin. Kreml isə hələlik müharibənin davam etməsində maraqlıdır. Ona görə Zelenski deyir ki, ”əgər Rusiya savaşı sürdürmək istəyirsə, biz 10 il də savaşmağa hazırıq. Görüş istəyirlərsə, ona da hazırıq”. Ukraynanın qəbahəti, günahı yoxdur, masaya əyləşməkdən niyə qorxsun ki? Yaxud Rusiya savaşda elə ciddi nailiyyət qazanmayıb ki, masada Kiyevə nəyisə diktə etsin. Müharibənin gedişi və uzanması göstərdi ki, Kreml zorakı yolla Kiyevə hansısa şərti qəbul etdirə bilmir. Danışıqlarda hər iki ölkənin maraqlarına uyğun razılaşmalar əldə edilməlidir. Moskva səmimi niyyətlə müzakirə masasına əyləşərsə, müharibə bitə bilər. Əslində Qərb ölkələri də müharibənin uzanmasında, daha doğrusu, Ukrayna ərazisində savaş getməsində maraqlı deyil. Problem ondadır ki, Rusiyanın Krımla yanaşı, Ukraynanın digər ərazilərinə də iddiaları var. İndiki halda Ukraynanın müharibəni dayandırması, Moskvanın Kiyev qarşısındakı şərtlərini daha da ağırlaşdıracaq. Məhz bunun baş verməməsi üçün Qərb Ukraynaya hərbi yardım göstərir”.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi;**



# Xəbər oğrularının sayı artıb

## Mediada istinad mədəniyyəti tam formalaşmayıb

**”İstinadla bağlı tələblərin pozulmasına görə indiyədək Medianın İnkişafı Agentliyinə (MEDİA) hər hansı bir müraciət daxil olmayıb”.**

**Bu sözləri MEDİA-nın İcraçı direktoru Əhməd İsmayılov deyib.**

**Onun sözlərinə görə, indiyədək saytlar və informasiya agentliklərindən istinadla bağlı tələblərin pozulmasına görə müraciət edilməyib.**

Qeyd edək ki, ”Media haqqında” qanunun 13-cü maddəsinə (İnformasiyadan istifadə edilməsi) əsasən media subyekti digər media subyektinin informasiyasını və proqramlarını istinad etməklə abunəlik və ya müqavilə əsasında istifadə edə bilər. Abunəlik və ya müqavilə olmadıqda media subyekti digər media subyektinin hər bir informasiyasının yalnız üçdə birindən çox olmayan hissəsini istinad etməklə istifadə edə bilər.

Qanunun 13.1-ci və 13.2-ci maddələri (istinadla bağlı tələb istisna olmaqla) dövlət orqanları (qurumları) tərəfindən yayılan rəsmi məlumatlara (press-relizlərə) və informasiya agentliklərinin informasiyasından istifadə hallarına şamil edilmir.

Bir neçə il öncəsinə qədər Azərbaycan mediasının ən ciddi problemlərindən biri idi istinad mədəniyyətinin formalaşmaması. Xüsusən elektron mediada istinad məsələsi aktual bir problemə çevrilmişdi. İstinad mədəniyyətinin pozulması problemi ilə əksər hallarda cəmiyyətdə nüfuzu olan, geniş oxucu auditoriyası ilə sayılıb-seçilən agentliklər, xəbər portalları üzləşirdilər. Bəzən də eyni məlumatın müxtəlif saytlarda istinadsız yayılması mübahisələrə yol açırdı. Həmin xəbərin ilk dəfə hansı saytda və ya qəzetdə dərc olunduğu ətrafında söz-söhbət sosial şəbəkələrdə qarşılıqlı ittihamlara səbəb olurdu.

**”APA Holdinq”in rəhbəri Vüsalə Mahirqızının ”Şərq”ə verdiyi açıqlamaya görə, istinad məsələsi hələ də aktual problem olaraq qalıb. Hətta ötən illərlə müqayisədə bu özünü daha qabarıq və biabırçı formada büruzə verir:** ”Əvvəllər istinad etmədən yazılarımızı yeni yaranan və yaxud tanınmayan sayt əməkdaşları öz imzası ilə verirdisə, ”Teleqraf” səhifələri, ”Tik-tok” profilləri və digər sosial şəbəkələrdə blogerlər izləyici yığmaq üçün bizim xəbərlərimizi istinadsız paylaşırlar. Hətta feysbukda jurnalist həmkarlarımız belə ”like” yığmaq üçün ”copy-past” xəbərlər paylaşır. Guya bizi reklam edirlər, halbuki, məqsədləri özlərinə izləyici yığmaqdan ibarətdir. İnsanlar bir-birilərinin əməyinə hörmət etməlidirlər. Heç kimin ixtiyarı yoxdur ki, jurnalistin müxtəlif mənbələrdən dəqiqləşdirdiyi özəl xəbəri istinadsız yaysın”.

**Mütəmadi olaraq monitorinqlər apardıqlarını vurğulayan V.Mahirqızı deyib ki, Azərbaycan mediasının cəmi 20 faizi istinad mədəniyyətinə malikdir. Digər materiallar götürülür, bəzən cümlələr dəyişdirilmədən, bəzən hətta orfoqrafiq səhvlərlə bir yerdə kopyalayıb yayırlar:** ”Bu barədə tədbirlərin birində Əhməd müəllimə də demişəm ki, apardığımız monitorinqlərlə bağlı yekun nəticə əldə edəndə bu barədə MEDİA-da təqdimatımız olacaq.

Bu məsələ qanunla tənzimlənsə də bizim hələ ki müraciətimiz olmayıb. İstinad hüququ pozulan media orqanları agentliyə müraciət etmədiyi üçün qurumun hərəkətə keçməsi təbiidir.

***Vüsalə Mahirqızı: "Həmkarlarımızın peşə etikası, əxlaq nöqteyi-nəzərindən bu cür əməllərdən uzaqlaşmasını istəyərdim"***

Sözün açığı, istinad mənim üçün vicdan məsələsidir.

Bunun qanunla qarşısını almaq üçün müəyyən yollar olsa da mən həmkarlarımızın peşə etikası, əxlaq nöqteyi-nəzərindən bu cür əməllərdən uzaqlaşmasını istəyərdim.

Amma görürəm ki, ildən-ilə xəbər oğrularının sayı daha da artır. Deməli ki, bu məsələ ilə bağlı ciddi addımlar atmağın vaxtı çatıb.

Axı bir insanın əşyasını oğurlamaqla onun beyninin məhsulu olan yazısını oğurlamaq arasında heç bir fərq yoxdur. Bu, başqasının intellektini, əməyini, zəkasını oğurlamaqdır.

Amma ki, istinadsız verilən xəbərlə bağlı bir konflikt, araşdırma tələb edən anlaşılmazlıq ortaya çıxan kimi həmin saytlar yaxalarını kənara çəkirlər. ”Biz bu xəbəri ”APA”dan götürmüşdük deyib məsuliyyətdən yayınırlar”.

Holdinq rəhbəri hesab edir ki, istinad hüququ pozulan media orqanları öz haqlarını qorumaq üçün aidiyyəti üzrə müraciət edib qarşı tərəfin üzr istəməsini tələb etsə, artıq ictimai qınaq formalaşacaq. Bir neçə etirafdan sonra bu işlə məşğul olan digər jurnalistlər də çəkinəcəklər: ”Onu da deyim ki, problemin kökü orta məktəblərə dayanır. Uşaq yaşlarından insanlara istinad mədəniyyəti aşılanmalıdır. İstinad tək medianın problemi deyil. Elmi əsərlərin, kitabların, hətta şeirlərin, mahnı mətnlərinin ”copy- past” edilməsi ilə bağlı qalmaqallar olur. Qızım oxuyan məktəbdə hər il akademik vicdanlılıqla bağlı müqavilə imzaladırlar. Oxuduğun hər hansı bir cümlədən istifadə etmək istəyirsənsə, mütləq istinad etməlisən. Əks halda bu, akademik cinayət kimi qəbul olunur. Bu cür insanların isə şəxsiyyət kimi formalaşması mümkün deyil”.

**Şəymən**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**



# Təhlükə hələ sovuşmayıb

## Minsk qrupunun sıradan çıxması mübarizəni aradan qaldırmır

**44 günlük Vətən müharibəsindən sonra bütün dünya ölkələri və təşkilatları artıq Qarabağın Azərbaycanın ayrılmaz bir parçası olduğu həqiqətini anlamağa başlayır.**

1992-ci ildə yaradılan və əsas vəzifəsi Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına və Qarabağ probleminin dinc vasitələrlə həll edilməsinə bilavasitə kömək etmək olan Minsk qrupu 30 il ərzində heç bir nəticə verməyib. Artıq münaqişə bitdikdən sonra bu qrup öz təsirini itirib. Yazılarda ”Minsk qrupu” və ”həmsədrlər” ifadələrinin işlədilməməsi diqqət çəkir.

Görüşlərdə də nümayəndələr özlərini fərqli statusda təqdim edirlər. Rusiya XİN rəhbəri məsələ ilə bağlı rəhbərlik etdiyi qurumun nümayəndəsi olduğunu bildirib.

Artıq ”Dağlıq Qarabağ” bölgəsi, ”Dağlıq Qarabağ münaqişəsi” olmadığı kimi, ATƏT-in Minsk qrupu həmsədrləri də yoxdur. De-fakto onlar özlərini buraxıblar - ABŞ nümayəndəsi, Rusiya təmsilçisi artıq özlərini ”həmsədr” kimi təqdim etmirlər. Fransa da öz nümayəndəsinin səfəri ilə bağlı Azərbaycan tərəfinə təqdim etdiyi müraciətdə ”həmsədr” ifadəsini işlətməyib.

**ATƏT-in Misnk qrupunun öz təsirini itirməsi ilə bağlı ”Şərq”ə danışan Azərbaycan Naminə Alyans Partiyasının sədri Abutalıb Səmədov bildirib ki, həmsədrlərin adı dəyişilsə də, mahiyyət eyni qalıb:**

***Abutalıb Səmədov: "Hamımız birlikdə əlimizdən gələni etməliyik ki, Qarabağ mövzusu gündəlikdən çıxsın"***

”Minsk qrupu 30 il ərzində Azərbaycana 7-dən artıq təklif verdi. Lakin bunların heç biri bizim maraqlarımıza cavab vermirdi. Düzdür, bəzilərini qəbul etmişdik. Ancaq Minsk qrupunun təhlükəliliyi onun adı ilə bağlı deyil, onun rəhbərliyində olan dövlətlərin, ilk növbədə ABŞ və Fransanın tutduğu erməniپərəst mövqe ilə bağlıdır. Təsadüfi deyil ki, Paşinyan dəfələrlə, xüsusilə Soçidə açıq şəkildə Rusiyanın vasitəçiliyinə etiraz etdi və Minsk qrupunun vasitəçi olmasını istədiyini bəyan etdi. Baxmayaraq ki, Azərbaycan prezidenti Rusiyanın vasitəçiliyini istəyirdi, çünki orada həm də Tükiyə var. İndi Minsk qrupunun həmsədrlərinin vəzifələrinin adı dəyişilib və onlar Rusiyada Rusiya prezidentinin şəxsi nümayəndəsi, ABŞ-da müşavir adlandırıblar. Ancaq mahiyyət dəyişməyib. ABŞ və Fransa Ermənistana dəstək verməyə davam edirlər. Nəyin bahasına olursa, olsun ”Dağlıq Qarabağ”a status almağa çalışırlar”.

**A.Səmədovun qənaətincə, təhlükə hələ bitməyib:**

”Keçən ilin fevral ayında bir ”Deyton sazişi” adlı təklif də ortaya atmışdılar. Amma bu, bizim üçün qətiyyən qəbulolunmaz idi. Təhlükələr hələ də qalır. Minsk qrupunun sıradan çıxması mübarizəni aradan qaldırmır. Azərbaycan hələ bir müddət bu istiqamətdə mübarizəsini davam etdirməlidir və hamımız birlikdə əlimizdən gələni etməliyik ki, Qarabağ mövzusu gündəlikdən çıxsın”.

**Çimnaz**

# Azərbaycan-Türkiyə Universitetinin yaradılması danışıqlar mərhələsindədir

## “Xarici ölkə universitetlərinin çox olması ölkədə ali təhsil müəssisələri arasında rəqabət mühitini də formalaşdıra bilər”



**Azərbaycan-Türkiyə Universitetinin (ATU) yaradılması ilə bağlı danışıqlar davam edir.**

Təhsil Nazirliyindən bildirilib ki, ATU-nun təsis olunması ilə bağlı Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə Türkiyə Respublikasının Ali Təhsil Şurası arasında müzakirələr gedir:

”2021-ci ilin dekabr ayında Ali Təhsil Şurasının sədri Erol Özvarın rəhbərliyi ilə nümayəndə heyətinin ölkəmizə baş tutmuş səfərindən sonra 2022-ci il 15-17 mart tarixlərində Azərbaycan Respublikasının Təhsil naziri Emin Əmrullayevin rəhbərlik etdiyi nümayəndə heyəti Ali Təhsil Şurasının sədri Erol Özvarın dəvəti ilə Türkiyədə səfərdə olub və səfər zamanı ATU-nun təsis olunması istiqamətində tərəflərin hüquq və öhdəliklərinə dair müzakirələr həyata keçirilib.

**Təhsil üzrə ekspert Kamran Əsədov ”Şərq”ə açıqlamasında bildirib ki, Azərbaycan-Türkiyə təhsil əlaqələri hər il yüksələn xətt üzrə davam edir:** ”Azərbaycan hələ sovet dönəmindən Türkiyə ilə ali təhsil sahəsində əlaqələr yaratmağa başlayıb. Lakin bu əlaqələr mövcud dövrün siyasi tələblərinə uyğun aparılıb və müstəqil olmayıb. Şübhəsiz ki, bu da iki qardaş xalqın milli maraqlarının təmin edilməsi istiqamətində çox mənfi hal olub. Amma müstəqilliyi bərpa olunduqdan sonra Azərbaycan Türkiyə ilə təhsil sahəsində əməkdaşlığa, daha böyük önəm verib. 1992-ci ilin 16-23 may tarixində Ankarada türk dövlətlərinin təhsil nazirlərinin toplantısı keçirilib və bu yığıncaqda təhsil sahəsindəki əməkdaşlıqdan, onun qarşısında duran problemlərdən bəhs edilib. İclasda qardaş dövlətlərin təhsilində bir-birinə yaxından kömək etməsi, təhsil ocaqlarının qarşılıqlı təşkili, bu işlərdə qarşıda duran problemlər və onların birgə aradan qaldırılması və s. məsələlər geniş müzakirə edilərək, lazımi qərarlar verilib. Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında təhsil aspektində əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün sonrakı illərdə də siyasi və hüquqi bazanın möhkəmləndirilməsi istiqamətində xeyli tədbirlər həyata keçirilib. Son illərdə görülən işlərin nəticəsində Türkiyə tərəfinin yeni təlim texnologiyaları sahəsindəki bilik və bacarıqlarını Azərbaycan tərəfi ilə bölüşməyi, dərs vəsaitlərinin hazırlanmasında və müəllimlərin bu sahədə ixtisas artırmaları istiqamətlərində, həmçinin Azərbaycan tərəfinin Dünya Bankı və başqa beynəlxalq qurumlarla həyata keçirəcəyi layihə fəaliyyətlərinə hər cür texniki yardım göstərməsi olduqca müsbət haldır”.

*K.Əsədov qeyd edib ki, Türkiyənin Qazaxıstan və digər bir neçə ölkə ilə birgə universiteti fəaliyyət göstərir:* ”Bütün sahələrdə Azərbaycanla qardaşlıq münasibətində olan dost dövlətin ölkəmizlə də ortaq ali təhsil müəssisəsi yaradılması çox mühüm hadisədir. Hazırda Türkiyədə 21 min azərbaycanlı gənc ali təhsil alır. Digər tərəfdən isə Türkiyə universitetlərinin əksəriyyəti dünya reytinqində öncül yerlərdədir. Məzunları müasir standartlara, əmək bazarının tələblərinə tam şəkildə uyğunlaşır. Ona görə də onların təcrübəsindən yararlanmağa böyük ehtiyac var. Mövcud qanunvericiliyə görə, Azərbaycan və Türkiyə birgə universitet və orta məktəb yarada bilər. Belə bir ali məktəbin yaradılması üçün iki ölkə arasında təhsil müqavilələri olmalıdır ki, qardaş dövlətlər arasında da kifayət qədər çoxistiqamətli müqavilələr var”.

**Müsahibimiz diqqətə çatdırıb ki, indiki halda Azərbaycan və Fransa birgə universiteti - UFAZ yaradılıb və fəaliyyət göstərir:** ”Türkiyə və Azərbaycanda təhsil sahəsində islahatlar həyata keçirilir. Ölkəmizin birgə məktəb təsis etmək təcrübəsi var. Bakının ”Ağ Şəhər” adlanan ərazisində Bakı Fransız Liseyi və UFAZ universiteti var. Bundan başqa, bir neçə ölkə ilə birlikdə Azərbaycanda məktəblər yaradılıb. Seçinov adına Moskva Tibb Universitetinin, Lomonosov adına Moskva Beynəlxalq Universitetinin rəsmi Bakıda filialları var. İnanıram ki, Azərbaycan-Türkiyə birgə ali məktəbin yaradılmasına dair danışıqlar olacaq və müsbət yöndə həllini tapacaq. Xarici ölkə universitetlərinin çox olması ölkədə ali təhsil müəssisələri arasında rəqabət mühitini də formalaşdıra bilər. Eyni zamanda xarici ölkə təcrübəsinin ölkəmizə gəlməsinə şərait yaradacaq”.

**Sücayət Mehti**

# Xəstələr narazıdır

## Daha bunun harası icbari tibbi sığorta oldu?

**Əhali icbari tibbi sığortadan niyə narazıdır? Həsrətlə yolunu gözlədiyimiz icbari tibbi sığortanın nəhayət bütün ölkə boyu tətbiqi elan edilsə də, gözləntilər hələ də özünü doğrultmur.**



*Qanun qəbul etməklə iş bitmir, qanunun icrası üçün də şərait yaradılmalıdır*

Yerli poliklinikalarda heç kreatin analizi də aparılmır. Laboratoriya işçiləri fağır-fağır ”bizdə bu müayinələr yoxdu”, deyir, sonra da çəkinə-çəkinə ”ödəniş edin, başqa yerə göndərək analizi, gəlib cavabını burdan alarsınız. Ödənişin miqdarını dəqiq bilmədiyimiz üçün yazmırıq. Payızda təxminən 12 manat idi. Yəqin qiyməti qalxıb. Laboratoriya işçiləri məsləhət də verir ki, özəl klinikaya getsəniz, xərci bundan artıq çıxacaq, yaxşısı burda ödəniş etməkdir. Kreatini söz gəlişi dedik. Digər zəruri müayinələrlə bağlı da həm poliklinikalarda, həm də dövlət tabeli tibb müəssisələrində problem ortaya çıxır. İcbari tibbi sığortaya ümid edib həkimə müraciət edənlərin əli boşa çıxır. Mütləq onları müayinə üçün harasa - ödənişli tibb mərkəzlərinə göndərirlər. Daha bunun harası tibbi sığorta oldu? Halbuki, icbari tibbi sığorta tətbiqinə başlanandan əmək haqlarından tutulmalar həyata keçirilir. Bu mənada işləyən əhalinin narazılığı haqlıdır: bir halda ki, icbari tibbi sığorta üçün əmək haqqından tutulur, niyə ondan istifadə edə bilmirik?

**Tibb üzrə fəlsəfə doktoru Şəmsiyyə Namazlı ”Şərq”ə açıqlamasında qeyd etdi ki, qanun qəbul etməklə iş bitmir, qanunun icrası üçün də şərait yaradılmalıdır:**

- İcbari tibbi sığortanın tətbiqindən əvvəl poliklinikalarda hansı analizlər, hansı müayinələr aparılırdısa, indi də elədir. Bu sahədə heç bir dəyişiklik baş verməyib, yenilik yoxdur. Məsələn, ultrasəs müayinəsi var, amma tutalım, qalxanvari vəzdəki problemi müəyyənləşdirmək üçün antitellərin analizi vacibdir, bunu isə edə bilmirlər. Ya da böyrəyin funksiyalarını göstərəcək analizlər yarımçıq aparılır, böyrəküstü vəz isə ümumiyyətlə yoxlanmır. Çünki bu analiz üçün lazım olan avadanlıq, tibbi ləvazimatlar yoxdur. Hansı zamandır ki, poliklinikalarda exokardioqramma edilmir?! Dövlət tabeliyində olan tibb müəssisələrində xroniki xəstəliklərin müayinəsi, müalicəsi aparılır, daha dəqiq müayinə lazım olduqda isə pasiyenti ya özəl klinikalara göndərirlər, ya da göndəriş verirlər ki, filan yerə get. Məsələn, doğuş prosesi, təxirəsalınmaz tibbi müdaxilələr mütləq icbari tibbi sığorta paketinə daxil edilməlidir. Poliklinikalarda müalicə-müayinə metodları genişlənməlidir, tibbi avadanlıqlar yenilənməlidir, analizlərin aparılması təkmilləşməlidir. Müasir avadanlıqlarla işləyə biləcək kadrlar olmalıdır. Məzmun və mahiyyət dəyişməlidir. Ümumi sistem və mühit yaxşılaşmalıdır. Vətəndaş tibb müəssisəsinə daxil olanda ürəyi açılmalıdır, həkimdən, tibb bacısından xoş münasibət, gülər üz görməlidir. Həkim deontologiyası çox aşağı səviyyədədir. Həkim pasiyenti onun anlayacağı dildə başa salmalı, sağlamlığı haqqında dolğun izahat verməlidir. Bəlkə pasiyentin həmin anda müalicə olunmaq üçün maddi imkanı yoxdur, yüksək etikaya malik həkim pasiyenti incitmədən, şəxsiyyətinə toxunmadan maddi durumunu ayırd etməyi bacarmalıdır.

*Ş.Namazlı qeyd etdi ki, icbari tibbi sığorta ilə bağlı əhaliyə bildirişlər təqdim olunur. Əhalinin məlumatlı olması baxımından bu, müsbət haldır. Lakin vətəndaş səhhətində yaranmış hər hansı problemlə əlaqədar dövlət tibb müəssisəsinə müraciət etdikdə, zəruri müayinələrdən keçə bilməyəcəksə və onu ora-bura göndərəcəklərsə, əlbəttə, narazı qalacaq:*

- Əgər icbari tibbi sığorta üçün ayrılan dövlət vəsaiti azlıq təşkil edirsə, artırılmalıdır. Üstəlik, müəssisə və təşkilatlar, işləyən əhalinin əmək haqqından icbari tibbi sığorta tutulmaları da var. Bu vəsaitlər doğru istiqamətdə sərf olunmalıdır.

**Məlahət Rzayeva**

# Məktəblərdə əsl psixoloqlar barmaqla sayılacaq qədər azdır

## Əksəriyyəti dəftərxana işi ilə məşğul olur, direktorlara çay daşıyırlar



**Təhsil naziri Emin Əmrullayev Gəncədə məktəbli qızlar arasında baş verən bıçaqlanma hadisəsinə münasibət bildirib.**

Təhsil sisteminin böyük olduğunu xatırladan nazir deyib ki, tez-tez bu tipli münaqişələrə, xoşagəlməz hallara rast gəlinir və yəqin ki, gələcəkdə də belə halların olması istisna deyil: ”Düşünürəm ki, bu tipli xoşagəlməz hallar daha çox ümumtəhsil müəssisəsi səviyyəsində həll edilməlidir. Digər aidiyyəti dövlət qurumlarının da bu məsələyə cəlb olunmasına ehtiyac var. Konkret hadisə azyaşlılar arasında baş verib. Azyaşlılarla xüsusi ilə tərbiyəçilər, psixoloqlar və aidiyyəti dövlət qurumlarının əməkdaşları, müvafiq şəxslər işləməlidir”.

Qeyd edək ki, məktəblərdə psixoloq ştatı olsa da, psixoloqlar öz işlərinin öhdəsindən gələ bilmirlər. Uşaq və yeniyetmələr arasında artan psixoloji problemlər də bunu sübut edir. Təhsil ekspertləri və müəllimlərin fikrincə, məktəblərdə psixoloqların saylarının az olması vəziyyəti daha da çətinləşdirir.

**Təhsil eksperti Kamran Əsədov ”Şərq”ə açıqlamasında bildirib ki, orta məktəblərdə çalışan psixoloqlar öz işləri ilə deyil, kənar işlərlə məşğul olurlar. Çoxu jurnal doldurur, dəftərxana işi ilə məşğul olur, direktorlara çay daşıyırlar. Təbii ki, bu, hamısına aid deyil. Məktəblərdə öz işini bilən psixoloqlar var. Amma onlar barmaqla sayıla biləcək qədərdir:** ”Müasir dövrdə psixoloq ştatı məktəblərdə ən vacib olan ştatlardan biridir. Bizim məktəblərdə psixoloqların işinin bu günün tələblərinə cavab verməməsidir.

***"Şagirdlərlə daha çox testlər üzərindən işləməliyik və onların sosial, psixoloji vəziyyətləri müəyyənləşməlidir. İndividual yanaşma tətbiq olunsa, ən azından xoşagəlməz hallar azalar"***

Şagirdlərin psixoloqa olan ehtiyacı ödənilmədiyindən, psixoloji problemləri həllini tapmadığından aşağı siniflərdən tutmuş yuxarı siniflərə qədər uşaqlar arasında intiharlar, bıçaqlaşmalar artır. Bu, uşaqların həyata hazır olmaması, çətin məqamlarda çıxış yolu tapa bilməməsi üzündən baş verir. Şagirdlərdə depressiya müşahidə olunur. İnternet və sosial şəbəkənin uşaqların həyatına sürətlə inteqrasiyası psixoloqların rolunu bir qədər də artırmalıdır. Açığı deyim ki, mən heç bir orta məktəbin sosial şəbəkədəki səhifələrində psixoloji dəstək məqalələri və testlər görmürəm. Psixoloji konsultasiyalar mövzusunda hər hansı fəaliyyət gözə dəymir. Bunlar çox ciddi məsələlərdir və diqqətdən kənarda qalmamalıdır. Burada digər problem odur ki, 100 şagirdi olan məktəbin də bir psixoloqu var, 1000-3000 şagirdi olan məktəblərin də. İlk növbədə psixoloq ştatının sayı artırılmalıdır. Həmçinin məsuliyyət olmalıdır. Təəssüf ki, bəzi məktəb psixoloqları qeyri-ixtisas sahədən gəliblər. 6 aylıq kurs bitirərək bu ştata qəbul olunurlar. Onların özlərinin belə psixoloji gərginlikləri olur. Məktəb psixoloqlarının hansı tələblərə cavab verməsi müəyyənləşdirilməlidir. Bu tələblərdən irəli gələrək məktəb psixoloqlarının işini düzgün istiqamətləndirən proqram işlənilməli, hazırlanmalıdır.

Hesab edirəm ki, şagirdlərlə daha çox testlər üzərindən işləməliyik və onların sosial, psixoloji vəziyyətləri müəyyənləşməlidir. İndividual yanaşma tətbiq olunsa, ən azından xoşagəlməz hallar azalar. Şagirdlərin yetkinlik dövrü mütləq nəzərə alınmalıdır”.

**Şəymən**



### Xocahəsəndəki yerüstü metro stansiyası üzərində çətirlərin quraşdırılmasına başlandı

**Bakı Metropoliteninin Bənövşəyi xətt üzərində inşa edilən ”Xocahəsən” deposunun sərnişin stansiyası üzərində çətirin qurulmasına başlanılıb.**

Bunu Trend-in sorğusuna cavab olaraq metropolitenin Mətbuat xidmətinin rəhbəri Bəxtiyar Məmmədov deyib.

O bildirib ki, hazırda depoda kompleks tikinti-quraşdırma işləri davam etdirilir.

”Stansiya çətiri quraşdırılandan sonra platformada dəmir yolu infrastrukturu qurulacaq. Stansiyada hazırda yardımçı və texniki otaqlarda infrastruktur işləri davam etdirilir.

Bununla yanaşı, depo ərazisində də quraşdırma işləri aparılır”, - B.Məmmədov deyib.

Qurum rəsmisi bildirib ki, tikinti quraşdırma işləri hazırkı səviyyədə davam edərsə, Xocahəsən deposu və yerüstü metro stansiyası bu ilin axırına istifadəyə verilə bilər.

**Elan**

”EK Express” MMC-yə (VÖEN 1306550411) sürətli poçt xidməti üzrə verilmiş EL-164/2020 qeydiyyat nömrəli 03.07.2020-ci il tarixli lisenziya və əlavəsi itdiyi üçün etibarsız sayılır.


**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**

**KURSLAR**

**-MÜHASİBAT** (2 AY)

**-Mobil telefonların təmiri** (3 ay)

**-KOMPYUTER** (1-3 AY)

**-KOSMETOLOGİYA** və **VİZAj** (3 AY)

**-KİŞİ** və **QADIN BƏRBƏRİ** (1-3 ay)

**-Dizayn** (3-6ay)

**-Masaj** (3 ay)

**-Biçmə - Tikiş** (3 ay)

**-Məktəb Psixologiyası** (12 ay)

**Tel: (012) 489-08-84**

**Mob: (070) 241-28-67**

**www.az-baku.com**


### Yeni turizm mövsümü başlayır

Karantin qaydalarının ləğvi tezləşdirilməlidir



***"Quru sərhədlərinin mərhələli açılışı, vaksin sertifikatı ilə bağlı tələblərin aradan qaldırılması ölkəyə gələn turistlərin sayının kəskin artmasına səbəb ola bilər"***

**Azərbaycanda xüsusi karantin qaydalarının daha da yumşaldılması və əksər pandemiya qadağalarının aradan qaldırılması ilə bağlı müzakirələr intensivləşir.**

Əksər ölkələr, tibbi maskadan və vaksin sertifikatından istifadə kimi tələbləri ləğv ediblər. Hətta bu məsələlərə konservativ yanaşan liberal Amerika Birləşmiş Ştatları da yeni yumşaldılmalar barədə qərar verib.

**Millət vəkili Vüqar Bayramov hesab edir ki, karantin qaydalarının ləğvi real sektorun və xüsusən də turizimin inkişafı baxımından vacibdir.** Deputat bildirib ki, 2021-ci idə formalaşmış Ümumi Daxili Məhsulun (ÜDM) 1,3 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə sahələrinin payına düşüb. Bu o deməkdir ki, turizm və əlaqəli sahələr ötən il 1 milyard 207 milyon manatlıq yeni dəyər formalaşdıra biliblər: ”Pandemiyadan əvvəlki il turistlərin yerləşdirilməsi və ictimai iaşənin ÜMD-də payı 2,4 faiz idi. Göründüyü kimi, karantin tədbirləri səbəbindən turizm və ictimai iaşənin iqtisadiyyatda payı 85 faizə yaxın azalıb. Doğrudur, ÜDM-nin məbləğindəki ötən ilki artım bu sektorların payına təsirsiz ötüşməyib. Amma reallıq bundan ibarətdir ki, karantin qaydalarının ən çox təsir etdiyi sektorlar məhz turizm və ictimai iaşədir”. Parlament üzvü vurğulayıb ki, yeni turizm mövsümü başlayır: ”2019-cu ilə ölkəyə 3.2 milyon turist gəlmişdisə, 2021-ci ildə pandemiya səbəbindən bu rəqəm 791 minə düşdü. Bu baxımdan, quru sərhədlərinin mərhələli açılışı, vaksin sertifikatı ilə bağlı tələblərin aradan qaldırılması ölkəyə gələn turistlərin sayının kəskin artmasına səbəb ola bilər. Turizm neftdən sonra Azərbaycana ən çox valyuta gətirən sektordur. Pandemiyadan öncə illik turizm gəlirləri 2.7 milyard dollara yaxın idi. Bu sektor həmçinin məşğulluğa da xüsusi töhfə verir. Bu baxımdan, əksər Qərb ölkələrində olduğu kimi Azərbaycanda da xüsusi karantin qaydalarının daha yumşaldılması turizm daxil olmaqla bir sıra sektorlar üçün əlavə imkanlar yaradacaq”.

**İsmayıl Qocayev**

# İstefa verməyə məcbur oldu

## Vahid Ələkbərovun “Lukoyl”dan getməsi birbaşa sanksiyalarla bağlıdır

**Azərbaycan əsilli rusiyalı iş adamı Vahid Ələkbərov ”Lukoyl”un Direktorlar Şurasını və şirkətin rəhbəri vəzifəsindən gedib. Bununla bağlı şirkət bəyanat yayıb.**

”Lukoyl” Rusiyanın ən böyük özəl neft şirkətidir. Şirkətin mətbuat xidmətinin verdiyi məlumatda bildirilib ki, şirkətin həmsahibi, prezidenti və təsisçisi V.Ələkbərov tutduğu vəzifədən, həmçinin Direktorlar Şurasından istefa vermək qərarına gəlib. Ötən gün şirkətin direktorlar şurasının sədrinə müvafiq istefa barədə məktub göndərilib. ”Lukoyl” şirkətinin rəsmi məlumatında qeyd edilir ki, V.Ələkbərov nəzarət paketinin sahibi deyil. O, birbaşa səhmlərin cəmi 3,12 faizinə, həmçinin səsvermə hüququ olmayan fondlar vasitəsilə 5,43 faizə sahibdir.



**Çünki fərdi cəza tədbirləri çox sərt şəkildə tətbiq edilib. Bundan sonra onun adı ilə bağlı şirkətlə müqavilə bağlamaq, fəaliyyət göstərmək çox çətin olacaq**

*Qeyd edək ki, V.Ələkbərov bir müddət əvvəl Böyük Britaniyanın sanksiyalarına məruz qalıb.*

**ReAL Partiyasının sədr müavini, iqtisadçı Natiq Cəfərli ”Şərq”ə açıqlamasında bildirib ki, V.Ələkbərovun ”Lukoyl”dan getməsi təbii ki, birbaşa sanksiyalarla bağlıdır:** ”Çünki fərdi cəza tədbirləri çox sərt şəkildə tətbiq edilib. Bundan sonra onun adı ilə bağlı şirkətlə müqavilə bağlamaq, fəaliyyət göstərmək çox çətin olacaq. Ona görə də istefa vermək məcburiyyəti yaranıb. Amma bu, o demək deyil ki, ”Lukoyl”un fəaliyyətinə kənardan hansısa bir məsləhət, yaxud idarəetmə formasında təsirlər mümkünsüzdür. Amma əsas səbəb təbii ki, cəza tədbirləri ilə əlaqəlidir. Sanksiyaların gücü və təsirlərini azaltmaq üçün belə bir addımın atılması ağlabatandır”.

*İqtisadçı Xalid Kərimli isə əlavə edib ki, sanksiyalar təkcə şirkətin özünə yox, səhmdarına, ailə üzvlərinə də tətbiq olunur:* ”Hazırda Rusiyada şirkətlər cəza tədbirlərindən yayınmaq üçün bəzən təsisçiləri dəyişirlər, sanksiya tətbiq olunmayan şəxsləri ora cəlb edirlər, təşkilati formada yenilik edirlər. V.Ələkbərovun ”Lukoyl” rəhbərliyindən getməsi isə öz səhhəti, şəxsi biznes qərarı, ona təzyiqlərin olması, yaxud özünün şəxsi istəyi ilə bağlı ola bilər”.

**Sücayət Mehti**

# Qadınların Polis Akademiyasına qəbulu dayandırılıb

## Çingiz Qənizadə: ”Bunu ayrıseçkilik, qadınların hüquqlarının pozulması kimi dəyərləndirmək doğru deyil”



**Qadınların Polis Akademiyasına qəbulu dayandırılıb. Bu qərar cəmiyyətdə birmənalı qarşılanmayıb və daha qadınların polis sıralarına qoşula bilməyəcəyi kimi dəyərləndirilib.**

Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin bölmə rəisi, baş leytenant Zeyni Hüseynov isə mətbuata açıqlamasında bildirib ki, qadın vətəndaşlarımız digər yerli ali təhsil müəssisələrini hüquq ixtisası üzrə bitirib polis orqanlarında xidmətə qəbul ola bilərlər. Hazırda daxili işlər orqanlarında qadın əməkdaşların kişilərlə birlikdə çiyin-çiyinə xidmət apardıqlarına diqqət çəkən qurum nümayəndəsi məsələyə belə aydınlıq gətirib: ”Polis Akademiyasına il ərzində təxminən 200 nəfər kursant qəbul olur. Onlar arasında qadın vətəndaşların sayı az, yəni 2-3 nəfər olur. Ümumilikdə həm orada fiziki hazırlığın ağır olmasına, həm xüsusi təyinatlı təhsil müəssisəsi olduğundan müvafiq hesab edilmir. Bundan başqa, qadın vətəndaşlarımızın polis orqanlarına xidmətə qəbulu müsabiqə yoluyla həyata keçirilir. Həmin müsabiqədə də müxtəlif ixtisaslar üzrə vakansiyalar elan olunub. Yəni hüquq ixtisası ilə yanaşı, digər ixtisasları da bitirən qadın vətəndaşlarımız polis orqanlarına qəbul ola bilirlər”.

***"Görünür, böyük əksəriyyəti oğlanlardan ibarət olan akademiyada oxumaq istəyən xanımlarımızın sayı az olduğu üçün belə bir addım atılıb"***

Belə məhdudiyyətin qoyulması zərurəti nədən yaranıb? Mövcud mentalitet qadınların oğlanlarla bir yerdə təhsil almasına əngəl yaradır, yoxsa akademiyanın yetişdirdiyi polis qadınlar özlərini doğrultmadı?

Sabiq millət vəkili, hüquq müdafiəçisi Çingiz Qənizadənin ”Şərq”ə açıqlamasına görə, qadınların Polis Akademiyasına qəbulunun dayandırılmasını ayrıseçkilik, qadınların hüquqlarının pozulması kimi dəyərləndirmək doğru deyil: ”Bu gün Azərbaycan Polisi sıralarında xidmət edən kifayət qədər xanım polislərimiz var. Görünür, böyük əksəriyyəti oğlanlardan ibarət olan akademiyada oxumaq istəyən xanımlarımızın sayı az olduğu üçün belə bir addım atılıb. 99 faizi oğlanlardan ibarət olan təhsil ocağına sənəd verib qəbul olan az sayda xanım kursant üçün ayrıca yataqxana və digər xidmət sahələri olmalıdır. Görünür, bu baxımdan məqsədəuyğun hesab edilməyib. Eyni zamanda milli mentalitet məsələsinin də burada böyük rol oynadığını düşünürəm. Qapalı və hərbiləşdirilmiş bir təhsil ocağında qadınların oğlanlarla bir yerdə təhsil alması zaman-zaman mübahisələrə yol açıb. Bəzi valideynlər qızlarının polis akademiyasında oxumasına icazə vermirlər.

Əgər DİN qadınların polis orqanlarında xidmət etməsinə hansısa məhdudiyyət qoysaydı, biz bunu onların hüquqlarının pozulması kimi dəyərləndirə bilərdik. Polis olmaq istəyən xanımların akamediyada oxuması şərt deyil. İstənilən yerli ali məktəbin hüquq fakültəsinə qəbul olaraq bu arzularını gerçəkləşdirə bilərlər ”.

**Şəymən**


Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, Nailə Cabarova, İlahə İbrahimova, Fazilə Məmmədova

Qəzet “Şərq”in kompyuter mərkəzində yığılır, səhifələnir və “Azərbaycan” nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, “Azərbaycan” nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: “Kapitalbank”ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 1115



## Gündə 2 litr su içmək təzyiqi qaldıra bilər

Həkim deyib ki, sutkada 500 ml su optimal variantdır

**Dietoloq gündə 2 litr su içməyin faydalı olması barədə fikrin yanlış olduğunu açıqlayıb.**

Bakupost.az xəbər verir ki, tibb elmləri namizədi, həkim dietoloq İnna Kononenko bəzi şəxslərə və xəstələrə hər gün 2 litr su içməyin zərərli ola biləcəyini açıqlayıb.

Sutkalıq su tələbatı bir kiloqram çəkiyə 30-40 millilitrdir. Bununla yanaşı maye çay, şorba, meyvə-tərəvəzlə də bədənə daxil olur.

Ona görə də bunları nəzərə almadan, bir sutkada 2 litr, hər dəfə 300-400 ml su içmək arterial təzyiqi yüksəldə bilər. Xüsusən diabet, təzyiq, hormonal problemləri olan xəstələrə bu qədər su olmaz. Sutkada 500 ml su optimal variantdır. Orqanizmdə artıq maye dövr edən qanın miqdarını artırır, bu zaman damarlar bu qanı qovmaq üçün gücləndirilmiş rejimə keçir, çox xəstələrdə vaxtında genişlənə bilmir. Bu da ürək-damar sisteminə zərərdir.

## Gözləriniz gözəllik görsün

100 yaşlı ağacda kitabxana yaradılıb



**Yaradıcı insanlar bəzən ən gözlənilməz əşya və əşyalarda ilham tapır, onları əsl şah əsərinə çevirirlər.**

Azərtac xarici saytlara istinadla xəbər verir ki, bunun əyani təsdiqi ABŞ-ın Aydaho ştatının sakini Şereli Armitaj Hovard tərəfindən yaradılmış qeyri-adi incəsənət obyektidir. Qadın yaşı təqribən 100 olan qurumuş, çürüyən ağacı kəsmək əvəzinə, onu mini kitabxanaya çevirib. Hazırda isə kitabxana bütün məhəllə sakinləri tərəfindən pulsuz istifadə olunur.

*Maraqlıdır ki, yaxın 10 il müddətində təkcə Amerikada deyil, dünyanın 88 ölkəsində 75 mindən çox mini-kitabxana yaradılıb.*

## Geri qayıtmaq ehtimalı azdır

İlon Mask: Marsda insanların həyatı çətin olacaq



**"SpaceX" şirkətinin qurucusu İlon Mask Marsın məskunlaşmasının bəşəriyyət üçün ciddi sınaq olacağını bildirib.**

**Azərtac xarici saytlara istinadla xəbər verir ki, başqa planetə köçmək qərarına gələn insanların həyatını təsvir edən sahibkar Marsı tədqiq etmək istəyən insanları XX əsrin əvvəllərindəki Antarktidanı fəth etmək çağırışları ilə müqayisə edib: "Marsda həyatın, xüsusən də başlanğıcda dəbdəbəli olmayacağını vurğulamaq çox vacibdir", - deyən İ.Maskın sözlərinə görə, bu, təhlükəlidir, ora narahatdır, geri qayıtmaq ehtimalı da azdır.**

**Sahibkar, həmçinin qeyd edib ki, Marsın müstəmləkəçiləri rahat yaşayış şəraitinə arxalana bilməyəcəklər.**

## Maradonanın forması rekord qiymətə satıldı





**Dünya futbolunun əfsanəsi Dieqo Armando Maradonanın forması auksionda satışa çıxarılıb.**

**Qol.az xəbər verir ki, futbolçunun 1986-cı ildə keçirilən dünya çempionatının 1/4 finalında İngiltərəyə qarşı keçirilən oyunda (2:1) geydiyi forma rekord qiymətə satılıb.**

**Maradonanın əli ilə qol vurduğu matçdakı forması üçün 4 milyon funt-sterlinq ödənilib. Bu, futbol forması üçün ödənilmiş ən yüksək məbləğ hesab olunur.**

**Qeyd edək ki, Maradona 2020-ci ildə vəfat edib.**

## Sürücüsüz taksinin 2024-cü ildə işə düşməsi nəzərdə tutulur



**ABŞ-ın "Tesla" şirkəti özünün elektromobilləri əsasında sürücüsüz taksi xidmətini işə salmağı planlaşdırır.**

**Trend-in məlumatına görə, bunu "Tesla"nın rəhbəri İlon Mask şirkətin fəaliyyətinin 2022-ci ilin birinci rübü üzrə yekunlarına həsr olunmuş mətbuat konfransında deyib.**

**Onun sözlərinə görə, "robotaksi" xidmətinin 2024-cü ildə işə düşməsi nəzərdə tutulur.**

***Qeyd olunur ki, bu xidmətdə "Tesla"nın tam avtomatlaşdırılmış, sükan və pedalları olmayan elektromobilləri istifadə olunacaq.***

***İ.Mask 2024-cü ilədək həmin avtomobillərin kütləvi istehsalına başlamaq niyyətində olduğunu bildirib.***



# Məzara qoyulan kişi yox, qadın döyüşçü olub

### DNA nümunələri indiyədək bilinən reallığı tamam dəyişdirdi





**Vikinq dedikdə, göz önünə cüssəli, döyüşçü kişilər gəlir. Lakin İsveçdə qədim vikinqlərə məxsus məzarlıqda aşkarlanan bir məzar indiyədək bilinən reallığı dəyişdirəcək gücdədir.**

"Şərq" "Milliyet.com"a istinadən xəbər verir ki, İsveçin cənub-şərqindəki Birka qəsəbəsində vikinq məzarındakı skeletdən alınmış DNA nümunələri burada torpağa verilmiş şəxsin kişi deyil, qadın olduğunu ortaya çıxarıb. Ağılları qarışdıran bu məzar 1880-ci ildə tədqiq edilib. Məzarın zəngin bir vikinqə məxsus olduğu, döyüşçünün burada qılıncı, oxları və qurban olaraq kəsilmiş iki atla birlikdə məzara qoyulduğu bildirilibmiş. Lakin Stokholm Universitetindən bioarxeoloq Anna Kjellström skeletin diş kökü və qol sümüyündən nümunə götürüb. Nümunə üzərində aparılan DNA analizlərində X xromosomu olduğu müəyyənləşib. Bu isə məzara qoyulanın kişi deyil, qadın olduğunu təsdiq edir. Yeni məzarda dəfn edilən kişi yox, qadın vikinq döyüşçüdür. Bu da vikinqlərin yalnız kişilərdən ibarət deyil, qadınlar arasında vikinq-döyüşçülər olduğunun sübutudur. Hətta arxeoloqlar bu məzarda uyuyan qadının sadə döyüşçü deyil, lider qadın olduğuna da inanır. Türkiyəli tarixçi, professor Selahattin Özkan isə bildirib ki, vikinqlər arasında qadın-kişi ayrıseçkiliyi olmayıb. Qadınlar da kişilərlə birlikdə döyüşüblər. XIII əsrə aid "Völsunga" əfsanəsi də bunu təsdiqləyir. Vikinqlər haqqında tarixi mənbələrdə qadınların hərbi, dini və siyasi işlərdə rol aldığı bildirilir: "Sivilizasiyaya daha gec nail olmuş toplumlarda qadın-kişi ayrıseçkiliyi olmayıb. Rollar bərabər paylaşılıb. Lakin bu, qadınların alt təbəqəyə məxsusluğuna dair qədim dövr dünyagörüşünü dəyişmir. Sadəcə, qədim dövrlərdə qadınların gücündən də istifadə edildiyini göstərir".

**Məlahət**



# Dünyanın ən yaşlı iti rekord qırdı

### Tobi Keith düz 21 il 66 gündür ki, ömür sürür



**Tobi Keith adlı it Ginnessin Rekordlar Kitabında dünyanın hazırda yaşayan ən yaşlı iti olaraq qeydə alınıb. Bu it 21 il 66 gündür ki, ömür sürür. Köpək 2001-ci il fevralın 9-da doğulub, 16 martda qeydiyyata alınıb. Bu barədə "NTV.com.tr" məlumat verir.**

Məlumatda qeyd olunur ki, itin sahibi Gisela Shore "Ginness"ə göndərdiyi bildirişdə "insanlar, yaşına görə bu qədər yaxşı görünməsinə inana bilmir", yazır. Sahibi bu iti heyvan sığınacağından əldə edib. Chihuahua cinsindən olan it ahıl yaşda olan cütlüyə məxsusmuş. "Yaşlı adamlar artıq onu bəsləyə bilməyəcəklərini dedi, mən də onu evə gətirdim, bəsləməyə başladım", söyləyən G.Shore it 20 ildən artıq ömür sürəncə onun dünyanın ən yaşlı iti olub-olmadığıyla maraqlandıqlarını deyib. Chihuahua cinsi itlər orta hesabla 12-18 il yaşayır. Bu itsə 20 ili arxada qoyub. Sahibi "Ginness"ə müraciət edib və məlum olub ki, həqiqətən də bu it dünyanın ən yaşlı itidir.

Sahibi itin bu qədər uzun ömür sürməsini həm genetik xüsusiyyətləri, həm də yaxşı qidalanması və evdə, ailə üzvlərinin sevgisini görməsiylə izah edir. Tobi Keith gününü gəzinti ilə başlayır, sonra ən sevdiyi yeməyi - bir parça hind toyuğu əti yeyir. Bundan əvvəlsə Avstraliyada 29 il 5 ay yaşamış çoban iti dünyanın ən yaşlı heyvanı olaraq qeydə alınıb.

**Məlahət**

## 6 aydır xəbər yoxdur

Tətilə getdi, həmşəhərlisi tərəfindən girov "qoyuldu"





**Serbiyaya turist səfərinə çıxmış Naim Öztürkdən 6 aydır ki, xəbər yoxdur.**

İddia edilir ki, Naim Öztürk Serbiyada həmşəhərlisi Mustafa Özgüllə qarşılaşıb. Mustafanın Serbiyada 15 min avro borclu olduğu adamlar varmış. Həmin şəxslər otelə gələrək pulu tələb edib, Mustafa da "Dostum burda qalsın, mən gedib pulu gətirim", deyərək gənci serbiyalıların girovluğuna verib. Lakin bir daha otelə qayıtmayıb. O gün, bu gün Naimdən də xəbər alınmır. "Şərq" "Milliyet.com"a istinadən xəbər verir ki, bu barədə Naim Öztürkün qaynı Səid Akdağ danışıb. S.Akdağ deyib ki, Mustafanın Naimi girovluğa verdiyi şəxslər mobil telefona belə bir səs atıblar: "Mustafa Özgül gəlməyincə bu gənc burdan gedə bilməz". Naimin ailəsi Serbiya və Türkiyə rəsmi orqanlarına müraciət edib, amma bir nəticə hasil olmayıb. Çarəsiz ailə indi Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğandan kömək istəyir. Ailəsi Naimə görə narahatdır, ona hər hansı şəkildə əlaqə yarada bilmirlər. Hətta Naimin artıq həyatda olmadığı şübhələri də var. S.Akdağ Mustafa Özgülün Almaniyada olduğunu, telefonlara cavab vermədiyini, gözləndiyini deyib.

**Məlahət**

## Rus milyonçu arvadı və qızını öldürüb intihar etdi





**Aprelin 19-da İspaniyanın Barselona şəhərində bağ evində "Novatek" qaz şirkətinin keçmiş top meneceri Sergey Protosenyanın və ailəsinin cəsədi aşkarlanıb.**

Axşam.az rus mediasına istinadən xəbər verir ki, Sergeyin həyat yoldaşını və qızını öldürdükdən sonra intihar etdiyi düşünülür.

Belə ki, 55 yaşlı Protosenyan həyat yoldaşı və 15 yaşlı qızını balta ilə qətlə yetirib, daha sonra özünü asıb. Cinayət zamanı istifadə olunan alətlər isə milyonçunun cəsədinin yanında aşkarlanıb.

Polis hadisənin təfərrüatlarını araşdırır.

*Qeyd edək ki, 400 milyon avroluq sərvətə sahib olan Protosenyan əsasən Fransada yaşayıb. O, ailəsi ilə İspaniyaya Pasxa tətilləri keçirtmək üçün gəlibmiş.*